QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir"

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 167 (6367) 16 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Azərbaycan və Türkiyənin mənəvi-siyasi birliyi bütün dünyaya nümunədir"

Bax 3



"Dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül...

## İQTİSADÇI AÇIQLADI: "Digər sahələrdə qiymət artımı ehtimalı yüksəlir"

Bax 12



""Aİ-95" və "Aİ-98" markalı benzin Azərbaycanda dövlət tərəfindən tənzimlənmir. Bir neçə il öncə bu dövlət tənzimlənməsindən çıxarılaraq, TARİF şurasının nəzarətindən kənarda saxlanıldı.

# Bakı şəhərinin elektrik təchizatının yaxşılaşdırılması üçün genişmiqyaslı işlər aparılır

Prezident İlham Əliyev Bakının Xəzər rayonunda "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib



## Birinci vitse-prezident Mehriban Əliyeva Bilik Günü münasibətilə məktəbliləri və tələbələri təbrik edib



*Azərbaycan Respublikasının Birinci vitse-prezident Mehriban Əliyeva Bilik Günü münasibətilə məktəbliləri və tələbələri təbrik edib. Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram hesabında bununla bağlı paylaşım edib. Paylaşımda deyilir:*

"Əziz məktəblilər və tələbələr!

Sizi Bilik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Qoy yeni tədris ili parlaq, yaddaqalan, səmərəli olsun və sizə çoxlu bilik, uğur və nailiyyətlər gətirsin! Sizin zəruri bilik və vərdişlər qazanmağınıza, istedad və qabiliyyətinizi inkişaf etdirməyinizə kömək göstərən bütün müəllimlərə təşəkkürümü bildirirəm! Hər birinizə möhkəm cansağlığı, gümrahlıq, tükənməz enerji, əzmkarlıq, gözəl əhval-ruhiyyə və əla qiymətlər arzulayıram!"



Bax 3

## Cahit Bağçı: "103 il əvvəl türk ordusunun bolşeviklərlə mübarizədə azərbaycanlı qardaşlarının yardımına gəlməsi əsl qəhrəmanlıq dastanıdır"

Sentyabrın 15-də Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə "Türk şəhidliyi" abidəsinin qarşısında anım mərasimi keçirilib.

## Tahir Kərimli: Türkiyə-Azərbaycan qardaşlığına kölgə salmaq istəyənlər arzularına çatmayacaqlar

Bax 4



103 il bundan əvvəl Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakını işğaldan azad etdi. Həmin gündən...



## Anti-Azərbaycan dairələrin çirkin planları necə alt-üst edildi?

Bax 13

## Gorus-Qafan yolundakı son vəziyyət - Azərbaycan polisi yola nəzarəti gücləndirir




## "Rusiyanın Ermənistana Belarusdan daha az ehtiyacı var"



Bax 15

## Avropa yenə də öz ordusunu yaratmaq istəyir...



Bax 13



## "Hər bir dərddən olur yaman ayrılıq..."

Bax 12

# Bakı şəhərinin elektrik təchizatının yaxşılaşdırılması üçün genişmiqyaslı işlər aparılır

*Prezident İlham Əliyev Bakının Xəzər rayonunda "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib*





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, ”Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov Prezident İlham Əliyevə yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinliklərinə baxmayaraq, dövlətimizin başçısının birbaşa diqqəti sayəsində ölkəmizdə çox mühüm sosial infrastruktur layihələri uğurla və ardıcıl şəkildə icra olunur. Bu layihələr arasında respublikanın bütün şəhər və rayonlarının, o cümlədən paytaxtın elektrik təsərrüfatının müasirləşdirilməsi istiqamətində həyata keçirilən silsilə və kompleks yenidənqurma tədbirlərinin xüsusi əhəmiyyəti var. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bu layihələr, ilk növbədə, insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına, onların rahatlığının təmin edilməsinə, sosial məsələlərinin həllinə yönəlib. Bu, eyni zamanda, elektrik enerjisinə tələbatın ödənilməsi, elektrik şəbəkələrində yüklənmələrin azalması, texniki itkilərin minimuma endirilməsi baxımından da çox önəmlidir.

Hazırda dövlət proqramlarının icrası ilə bağlı Bakı şəhərinin elektrik təchizatının daha da yaxşılaşdırılması üçün genişmiqyaslı tikinti, yenidənqurma və təmir işləri aparılır. Bu işlərin davamı olaraq, Xəzər rayonu ərazisində ”Buzovna-1” yarımstansiyası tikilib. Yeni yarımstansiya artan tələbatı ödəməklə, Buzovna, Zuğulba, Albalılıq, Bilgəh, Nardaran, Maştağa qəsəbələrinin, dövlət əhəmiyyətli obyektlərin, həmçinin istirahət, turizm, tibb obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsində böyük rol oynayacaq.





Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub, ən müasir qurğular və avtomatika sistemi ilə təchiz edilib. Ümumilikdə, ”Azərişıq” ASC tərəfindən yeni inşa olunan qapalı tipli yarımstansiyalarda texniki və texnoloji yeniliklərə xüsusi diqqət verilir. Paytaxtın digər ərazilərində 110, 35 və 0,4 kilovoltluq ötürücü xətlər kabellə yeraltı borular və tunellər vasitəsilə çəkilib ki, bunların istismar müddəti baxımından etibarlılığı 2-3 dəfə çoxdur.

Prezident İlham Əliyev ”Buzovna-1” yarımstansiyasını işə saldı. Dövlətimizin başçısına işğaldan azad olunmuş ərazilərdə ”Azərişıq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən ”Ağıllı şəbəkə konsepsiyası” əsasında görülmüş işlər barədə də məlumat verildi.

Bildirildi ki, Şuşa şəhəri və Suqovuşan qəsəbəsinin elektrik təchizatının təmin edilməsində ilk dəfə müasir tipli mühafizəli və izolyasiyalı kabel xətti, paylayıcı şəbəkə modeli tətbiq olunub. Ümumilikdə, işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təchizatında innovativ texnologiyaların tətbiqi uğurla davam etdirilir. Belə ki, müasir tip mühafizəli və izolyasiyalı kabel xətlərinin texniki-iqtisadi səmərəliyini artırmaq məqsədilə yeni fiber-optik kanalla təchiz edilmiş mühafizəli kabellərin tətbiqi nəzərdə tutulub. Bununla da həm elektrik enerjisi, həm də keyfiyyətli internet şəbəkəsinin ötürülməsi mümkündür. Beləliklə, ”ağıllı şəhər” və ”ağıllı kənd” layihələrinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edən yüksəksürətli internet şəbəkəsinin yaradılması üçün əlavə infrastrukturun qurulmasına ehtiyac qalmır və iqtisadi səmərəlilik göstəriciləri yüksəlir. Digər tərəfdən hər bir abonentin bir kabel xətti ilə həm elektrik enerjisi, həm də dayanıqlı və yüksəksürətli optik kanalla internet və rabitə xətlərinə çıxışı olacaq.



İşğaldan azad edilmiş ərazilərdə ”ağıllı şəbəkə” konsepsiyası üzrə müasir, daha dayanıqlı ikipilləli 110/35 kilovoltluq şəbəkələrin iqtisadi əsaslandırması həyata keçirilib. Ənənəvi şəbəkələrlə müqayisədə bu tip şəbəkələrdə elektrik təchizat sxemi sadələşir, etibarlılıq və rentabellik dəfələrlə artır, 6 ilədək tikinti müddətinə, layihələndirmə və sənədləşdirmə vaxtına, 60 min hektardan çox faydalı torpaq sahəsinə qənaət edilir. Müasir şüşə lifli, kompozit materialdan hazırlanmış dayaqlar quraşdırılır ki, onlar da sərt iqlim və istismar şəraitinə dözümlü olmaqla yanaşı, daha az xərc tələb edir. Beləliklə, müasir texnologiyaların tətbiqi nəticəsində elektrik təchizatı şəbəkəsinin dayanıqlığı artırılaraq böyük miqdarda maliyyə vəsaitinə qənaət olunacaq.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Ucar rayonunun Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyevin digər Sərəncamı ilə Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqov eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilib.

# "Azərbaycan və Türkiyənin mənəvi-siyasi birliyi bütün dünyaya nümunədir"

*İqtidar partiyaları arasında münasibətlər heç vaxt bu cür güclü və yüksək səviyyədə olmayıb*

***"Dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu qardaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. 1918-ci il sentyabrın 15-də Bakının erməni-daşnak və bolşevik birləşmələrinin işğalından azad olunması da ortaq şanlı tariximizin qürurverici səhifələrindən biridir.***



Ümumiyyətlə, 15 sentyabr tarixi Azərbaycan xalqı üçün çox əlamətdar bir gündür. 103 il bundan öncə Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin ordusu ilə birlikdə Bakı şəhərini bolşevik-daşnak işğalından azad ediblər. Bundan iki gün sonra isə Xalq Cümhuriyyətinin paytaxtının Gəncədən Bakı şəhərinə köçürülməsi tariximizdə böyük hadisədir. Bu hadisə göstərdi ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı dərin tarixi köklərə əsaslanır. "Türk şəhidliyi" abidəsini ziyarət etmək, şəhidlərin əziz xatirəsinə ehtiram göstərmək bizim mənəvi borcumuzdur. Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsinin 103-cü ildönümü münasibətilə münasibətilə bütün xalqımızı təbrik edirəm". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların nümayəndələrinin "Türk şəhidliyi" abidəsini ziyarəti zamanı jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, Bakının işğaldan azad olunmasında 1130 türk əsgəri şəhid olub: "Ümumilikdə, Azərbaycan ərazisində o zaman daşnak-bolşevik qüvvələri ilə döyüşlərdə 5 mindən çox türk əsgəri öz canını qurban verib. Bu fədakarlıq Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub və biz hər zaman türk şəhidlərinin xatirəsini uca tuturuq. Bütövlükdə, 1918-ci il sentyabrın 15-də Bakının erməni-daşnak və bolşevik birləşmələrinin işğalından azad olunması da ortaq şanlı tariximizin qürurverici səhifələrindən biridir. Xalq Cümhuriyyətinin hökuməti tərəfindən 1919-cu ildə bu ərazidə "Türk şəhidliyi" abidəsinin bünövrəsi qoyulsa da, 1920-ci ilin aprel ayında bolşevik işğalı nəticəsində Cümhuriyyətin süqutu bu işin başa çatdırılmasına imkan vermədi. Lakin Azərbaycan ikinci dəfə müstəqilliyini elan etdikdən sonra abidə ucaldıldı. Bu abidə Azərbaycan-Türkiyə dostluq və qardaşlığının bir rəmzidir. "Türk şəhidliyi" abidəsi xalqımız tərəfindən böyük hörmət və ehtiramla yad edilən məkana çevrilib", -deyən Tahir Budaqovun sözlərinə görə, 102 ildən sonra - İkinci Qarabağ müharibəsində Türkiyə dövləti və xalqı Azərbaycanın öz torpaqlarını erməni işğalından azad olunmasına güclü mənəvi və siyasi dəstək verdi. Türkiyə Vətən müharibəsində Azərbaycanla bir olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı qardaş dəstəyini hər zaman çox yüksək qiymətləndirir, "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan münasibətlərin inkişafından böyük məmnunluq ifadə edir".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan-Türkiyə münasibətləri bu gün strateji müttəfiqlik zirvəsinə yüksəlib: "Bir millətin iki dövləti olan Azərbaycan və Türkiyə arasında dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan çoxşaxəli, milli maraqlara cavab verən münasibətlər bu gün ən yüksək zirvədədir və heç vaxt indiki qədər möhkəm - güclü olmayıb. Azərbaycan və Türkiyə prezidentləri cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri, qardaşlığı bütün sahələrdə əməkdaşlığa, görülən işlərə öz töhfəsini verməkdədir. İki ölkə başçısının siyasi iradəsi tərəflər arasında iqtisadi, hərbi-texniki, mədəni-humanitar və digər istiqamətlərdə münasibətlərin dinamik inkişafını təmin edir. Fəal siyasi dialoq şəraitində iqtisadi əlaqələrin genişlənməsi iki ölkənin milli maraqlarına xidmət edən mühüm strateji amildir. Türkiyə Azərbaycanın əhəmiyyətli ticarət tərəfdaşıdır, ölkəmizin xarici ticarət dövriyyəsində və ixracında, eləcə də idxal əməliyyatlarında mühüm yer tutur. Bununla yanaşı, qarşılıqlı investisiya qoyuluşu iqtisadi münasibətlərin səmərəliliyini artırır. Digər tərəfdən, Azərbaycan-Türkiyə münasibətlərində hərbi-texniki əməkdaşlıq da vacib istiqamətlərdən biridir. Xüsusilə də, müdafiə sənayesi sahəsində intensiv əlaqələrin və işbirliyinin yaradılması strateji önəm daşıyır. Bütövlükdə isə, iki ölkənin hərbi-strateji əməkdaşlığı bölgədə sülh və təhlükəsizliyin təmin olunması baxımından olduqca əhəmiyyətlidir. Cari ilin iyun ayının 16-da Şuşa Bəyannaməsinin imzalanması isə tarixi hadisə kimi müttəfiqlik münasibətlərinin yeni səviyyəyə yüksəlməsini şərtləndirib. Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər göz önündədir. Bu gün Azərbaycanın güclü və müzəffər ordusu var. Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuzun daha da gücləndirilməsi işi davam etdirilir. Türkiyə bu məsələdə öz dəstəyini göstərir. Son zamanlar keçirilən birgə hərbi təlimlər də bunu nümayiş etdirir. Həmçinin Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında da yaxından iştirak edir. Bütövlükdə, Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin icra edilməsi ilə faktiki olaraq Azərbaycanla Türkiyə Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Yeni reallıqlar regionda təhlükəsizliyin təmin olunmasına, əməkdaşlığa və inkişafa xidmət edir".

Tahir Budaqov yeni mərhələdə Azərbaycan və Türkiyənin strateji təşəbbüslərinin regional inkişafa və təhlükəsizliyə xidmət etdiyini diqqətə çatdırıb: "Postkonflikt mərhələsində Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsinə, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək. Bu isə tərəqqi və rifah vəd edir",-deyən Tahir Budaqov əlavə edib ki, Azərbaycan və Türkiyənin mənəvi-siyasi birliyi bütün dünyaya nümunədir".

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri iki ölkənin hakim partiyaları arasında münasibətlərin inkişafının da müstəsna əhəmiyyət daşıdığını vurğulayıb. O bildirib ki, YAP-AK Parti əlaqələrinin intensiv xarakter daşıması Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfədir: "Ümumiyyətlə, Azərbaycan-Türkiyə münasibətləri yalnız dövlətlər arasında deyil, iki ölkənin hakim partiyası - Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında əlaqələr də keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Biz siyasi partiyalar olaraq dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələrimizi daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoymuşuq. Bu ilin iyun ayında mənim rəhbərliyimlə Türkiyədə səfərdə olan YAP nümayəndə heyəti AK Partinin yüksək səviyyəli rəsmiləri ilə görüşlər keçirib, eyni zamanda tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolu imzalanıb. Səfər zamanı nümayəndə heyətimiz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilib. Bu səfər çox səmərəli olub və bizim qarşılıqlı münasibətlərimiz, gələcək əməkdaşlığımız üçün güclü hüquqi, institusional baza formalaşdırıb, siyasi əlaqələrin perspektiv inkişafı üçün dönüş nöqtəsi olub. İyul ayında isə AK Parti sədrinin birinci müavini Numan Kurtulmuşun başçılığı ilə geniş nümayəndə heyəti ölkəmizə səfər etdi. AK Partinin nümayəndə heyəti Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul olunub. Bundan sonra bizim birgə fəaliyyətimizin dəqiq konturları müəyyən edilib. Eyni zamanda, bu fəaliyyət yalnız siyasi partiyaları əhatə etməyəcək, eləcə də ölkələrimizin vətəndaş cəmiyyəti institutları, müxtəlif ictimai-siyasi təsisatları arasında, beynəlxalq platformalarda əməkdaşlığı da özündə ehtiva edəcək. Gələcəkdə bu istiqamətlərdə işlərimiz davam edəcək".

## Cahit Bağçı: "103 il əvvəl türk ordusunun bolşeviklərlə mübarizədə azərbaycanlı qardaşlarının yardımına gəlməsi əsl qəhrəmanlıq dastanıdır"



Sentyabrın 15-də Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə "Türk şəhidliyi" abidəsinin qarşısında anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, səfirliyin əməkdaşları iştirak ediblər. Səfir Cahit Bağçı abidənin önünə əklil qoyub. Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsi zamanı şəhid olan türk hərbçilərinin xatirəsi yad edilib.

Tədbirdə çıxış edən səfir bildirib ki, 103 il əvvəl türk ordusunun bolşeviklərlə mübarizədə azərbaycanlı qardaşlarının yardımına gəlməsi əsl qəhrəmanlıq dastanıdır. "Əziz şəhidlərimiz! Siz Azərbaycan xalqının müstəqilliyi uğrunda savaşaraq canınızdan keçdiniz. "Bir millət, iki dövlət" anlayışı ilə Azərbaycan və Türkiyənin sevinci də, kədəri də birdir. Azərbaycanın digər bölgələrində olduğu kimi, Bakıda da rahatlıqla uyuyun. Siz məqamın ən ucasına çatmısınız. Ruhunuz şad olsun!", - deyə səfir qeyd edib.

Diplomat bildirib ki, Osmanlı dövləti 103 il əvvəl Balkan yarımadası, Suriya, İraq və Şərq cəbhələrində ölüm-qalım mübarizəsi aparırdı. Bu dönəmdə bolşeviklərin işğalı və zülmü ilə üzləşən azərbaycanlı qardaşlarının köməyinə gələrək, Azərbaycanı müdafiə etməsi qəhrəmanlıq dastanıdır. Anadolunun və Qafqazın igidlərinin qanları ilə sulanmış bu torpaqlar həm də qardaşlıq xəmirini yoğurub. Sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin məzarları üzərinə güllər qoyulub, xatirələrinə ehtiram ifadə edilib. Səfir Cahit Bağçı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

## "Üç Qardaş-2021" birgə təlimi ərəb mediasının diqqət mərkəzindədir






Sentyabrın 12-dən 20-dək Bakıda ilk dəfə olaraq keçirilən Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin "Üç Qardaş - 2021" birgə beynəlxalq təlimi ərəb ölkələrinin mediasının diqqət mərkəzində olub.

AZƏRTAC və Anadolu agentliklərinin xəbərlərinə istinadla nüfuzlu Səudiyyə Ərəbistanının "Arabnews" qəzeti, Misirin "Asiaelyom" agentliyi, Əlcəzairin "Əl Hərir", Küveytin "Əl Raimedia", habelə "Əlmayadin" və "Əl Məsdər" portalları birgə təlim haqqında ingilis və ərəb dillərində materiallar dərc ediblər.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına əsasən qeyd olunub ki, birgə təlimin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı dost və tərəfdaş ölkələrin xüsusi təyinatlı bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılmasıdır. Xəbərlərdə Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyevin "Üç qardaş - 2021" beynəlxalq təlimləri zamanı hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacağına və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəyinə əminliyini bildirdiyi qeyd olunub.

İƏT-ə üzv ölkələrin Milli Xəbər Agentlikləri Birliyinin (UNA) rəsmi saytında isə Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Türkiyəyə səfəri haqqında AZƏRTAC-ın xəbəri yayımlanıb.



# Siyasi partiyaların nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər





***Sentyabrın 15-də Bakının erməni-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü münasibətilə respublikamızda fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri və nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər.***

Ziyarətçilər "Türk şəhidliyi" abidəsinin önünə gələrək Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda canlarından keçən türk qardaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Siyasi partiya rəhbərləri və nümayəndələri Azərbaycan -Türkiyə qardaşlığının əbədi və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan türk şəhidlərinin qəhrəmanlığını və fədakarlığını dərin hörmət və ehtiramla anıblar.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının nümayəndələri də Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Abidənin önünə gül dəstələri qoyulub.

Xatırladaq ki, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Bakıya hücumda iştirak etmək üçün təxminən 8 min Osmanlı əsgəri və Azərbaycanın 7 min nəfərədək yerli qüvvəsi toplanıb. Bu hərbi əməliyyatla həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bu tarixi hadisədən sonra sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürülüb.

# PARTİYA SƏDRİ AÇIQLADI: "Azərbaycan artıq şərt diktə edən dövlətdir"

***"Bu gün Qafqaz İslam Ordusu və Azərbaycan komandanlığı Bakı şəhərini bolşevik-daşnaqların işğalından azad edib. 100 il bundan əvvəl də millətimizin ağır günündə qardaş türklər bizim köməyimizə gəlib". SİA xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev deyib.***



Onun sözlərinə görə, Bakısız Azərbaycanın müstəqilliyini təsəvvür etmək çətin idi: "Belə bir gündə xalqımız ayağa qalxdı və qardaş türk Azərbaycana yardım etdi. Biz Nuru və Ənvər Paşanı minnətdarlıqla xatırlamalıyıq".

E.Musayev vurğulayıb ki, bu gün də aydın görünür ki, çətin gündə Azərbaycan və Türkiyə bir yerdədirlər. 44 günlük Vətən müharibəsində də qardaş Türkiyənin hər cür dəstəyini gördük: "Dünyanın belə çətin zamanında Azərbaycan tək deyil. Azərbaycan artıq şərt qəbul edən deyil, diktə edən dövlətdir. Çox xoşbəxt haldır ki, Azərbaycanın Türkiyə kimi müttəfiqi və qardaşı var".

*Aysel Məmmədova*



# Tahir Kərimli: Türkiyə-Azərbaycan qardaşlığına kölgə salmaq istəyənlər arzularına çatmayacaqlar

103 il bundan əvvəl Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakını işğaldan azad etdi. Həmin gündən sonra Bakı şəhəri bizim vahid paytaxtımız oldu. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin deputatı, Vəhdət Partiyasının sədri Tahir Kərimli deyib.

Deputat babasının qardaşı Əliqulu Dursunəlioğlunun Bakının işğaldan azad olunmasında, bacısı oğlunun isə Birinci Qarabağ müharibəsində şəhid olmasından qürur hissi keçirdiyini deyib.

"Ötən əsrin əvvəlində Türkiyə özü də ağır vəziyyətdə idi. Ərazisinin böyük hissəsi işğal olunmuşdu. Buna baxmayaraq, onlar özlərinə borc bildilər ki, Azərbaycanın yanında olsunlar. Nuru paşanın başçılığı ilə Bakının müdafiəsinə qalxdılar. Bunu hamı bilsin ki, Türkiyə-Azərbaycan qardaşlığına kölgə salmaq istəyənlər öz istəklərinə çata bilməyəcəklər. Çünki biz eyni qanı daşıyırıq. Biz bundan sonra da güclənəcəyik. Son 100 ildə ilk dəfədir ki, türkün gücü, birliyi ortaya çıxıb. Bizim birliyimiz, inkişafımız hələ uzun illər davam edəcək", - deyə Tahir Kərimli qeyd edib.

# Erkin Qədirli: Azərbaycan-Türkiyə münasibətləri maraqlardan üstün unikal bir xarakterə malikdir

***Şuşa Bəyannaməsi çox önəmli bir sənəddir. Həmin sənəddə bir çox bəndlər var. Lakin bu sənəddə strateji cəhətdən ən vacib bənd Azərbaycanla Türkiyənin müdafiə və təhlükəsizlik sahəsindəki tədbirlərinin əlaqələndirilməsi ilə bağlıdır.***



Çünki burada əməkdaşlıq deyil, (hansı ki, bu, dövlətlərimiz arasında hər zaman olub) birbaşa əlaqələndirmədir. Bu bəndin üstünlüyü ondadır ki, Türkiyə və Azərbaycan dövlətlərindən hansınınsa təhlükəsizliyinə təhdid olarsa, digər dövlət onun yardımına gəlməlidir.

Bu fikirləri "Real" Partiyasının üzvü, Milli Məclisin deputatı Erkin Qədirli AZƏRTAC müxbirinin Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı vəziyyəti ilə bağlı sualını cavablandırarkən söyləyib.

Deputat deyib: "Nəzərə almalıyıq ki, Türkiyə həm də NATO-nun üzvüdür. Bu vaxtadək elə bir təcrübə yoxdur ki, NATO-nun üzvü olan ölkə eyni təşkilatda təmsil olunmayan digər bir dövlətlə bu cür sənəd imzalasın. Hazırda ABŞ-ın NATO üzvü olmayan, lakin özünə strateji müttəfiq hesab etdiyi bir neçə dövlətlə belə anlaşması var. Lakin ABŞ həmin ölkədə, məsələn, Yaponiyada özünün hərbi bazalarını yerləşdirib. Hazırda postsovet ölkələrindən qərbyönlü siyasət yürüdən, Avropa İttifaqına, NATO-ya üzvlük haqqında açıq danışan Ukrayna, Moldova və Gürcüstandan fərqli olaraq, yalnız Azərbaycanın NATO üzvü olan bir ölkə ilə bu cür münasibətləri var. Təbii ki, Şuşa Bəyannaməsinin imzalanması başqa amillərlə də bağlıdır. Çünki Azərbaycan və Türkiyə həqiqətən də qardaş dövlətlərdir. Ona görə də heç bir siyasi nəzəriyyə bu münasibətləri izah edə bilməz. Deyə bilərik ki, Azərbaycan-Türkiyə münasibətləri maraqlardan üstün unikal bir xarakterə malikdir. Bu, bir daha göstərir ki, Azərbaycanla Türkiyə bir millət, iki dövlətdir".

***Azərbaycanda ötən illər ərzində hər bir sahədə müsbət irəliləyişlərə nail olunması bir daha deməyə əsas verir ki, ölkədə dayanıqlı inkişaf uğurla təmin edilib. Atılan bütün addımlar Azərbaycanın inkişafına, xalqın sosial rifah halının yaxşılaşdırılmasına xidmət edir. Ölkəmiz nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir və dünyada Azərbaycana olan maraq günü-gündən artır.***

# İşğaldan azad edilən ərazilərdə böyük quruculuq işləri aparılır





Bu gün Azərbaycan artıq dünyada Zəfər qazanmış, Qalib bir ölkə olaraq da tanınır və bu Azərbaycan reallığıdır. 30 ilə yaxın bir zamanda işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordunun gücü ilə azad olundu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanılmasından sonra azad olunan ərazilərdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışların birində qeyd etdiyi kimi, "Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb".

Qısa bir zamanda Böyük Qayıdışın təntənəsi olaraq dövlət başçısının sərəncam və tapşırıqları ilə görülən işlər hər kəsin diqqətindədir. Yeni yolların çəkilməsi, dini abidələrimizin təmir və bərpası, infrastrukturun qurulması və s. tezliklə bu ərazilərin tam bərpasından xəbər verir. İstər ölkə vətədaşları, istərsə də ölkəmizə səfər edən insanlar işğaldan azad olunan ərazilərimizə səfər edərkən böyük quruculuq işlərini görür və bu hər kəsi sevindirir.

Əlbəttə ki, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib. Fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan yeraltı və yerüstü sərvətlərimizə qarşı olan vandallıq əməlləridir. Meksikanın ən nüfuzlu mətbu orqanlarından olan "El Universal" qəzetində ötən ay Azərbaycanın işğaldan azad edilmiş ərazilərində səfərdə olmuş, qəzetin redaktoru, beynəlxalq siyasi məsələlər üzrə ekspert və Meksikada keçmiş Ermənistan-Azərbaycan münaqişəsi haqda ən çox məlumatlı olan jurnalistlərdən biri Qabriel Moyssenin "Azərbaycan bərpa edir" adlı məqaləsi yer alıb. Azərbaycanın işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Ağdam və Şuşa, həmçinin Gəncə şəhərlərində səfərdə olmuş jurnalist qələmə aldığı məqalədə 30 ilə yaxın işğalda saxlanılmış ərazilərimizdə Ermənistanın apardığı kütləvi minalanmadan bəhs edərək, 44 günlük Vətən müharibəsindən sonra bu günədək yüzlərlə hərbi və mülki azərbaycanlının erməni minalarının qurbanı olduğunu bildirir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal dövründə bu ərazilərdə yüz minlərlə minanın yerləşdirildiyi, Ermənistanın mina xəritələrini verməkdən imtina etdiyi barədə məlumat verən müəllif bunun həmin ərazilərdə aparılacaq bərpa və yenidənqurma işlərini, habelə bir milyondan artıq qaçqın və məcburi köçkünün öz yurdlarına qayıtma prosesi qarşısında ən böyük maneə olduğunu vurğulayır.

Müəllif məqalədə Cəbrayıl, Ağdam və Azərbaycanın mədəniyyət beşiyi olan Şuşaya səfərindən bəhs edir və orada yaşayış məskənlərinin dağıdıldığını, tarixi-memarlıq abidələrinin erməni vandalizminə məruz qaldığının şahidi olduğunu təəssüflə qeyd edir.

Meksikalı ekspert işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən artıq intensiv şəkildə bərpa və yenidənqurma işlərinin həyata keçirdiyini də oxucularının diqqətinə çatdırır. Ağdam, Şuşa, Zəngilan kimi işğaldan azad olunun ərazilərdə aparılan abadlıq quruculuq işləri uğurla davam etdirilir. Yazıda yaxın zamanda açılmış Füzuli beynəlxalq hava limanı və "ağıllı şəhər" konsepsiyası sayəsində bu ərazilərə yatırılan investisiyaların miqdarının çoxalacağı və geniş iqtisadi imkanların yaradılacağı qeyd olunur. İşğaldan azad edilmiş rayonlarda "yaşıl enerji" zonasının yaradılması məqsədilə, ilkin olaraq, pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilib. "Ağıllı kənd" layihəsi ilkin olaraq Zəngilan rayonunun Üçüncü Ağalı kəndində reallaşacaq.








Əlbəttə ki, həyata keçirilən tədbirlər deməyə əsas verir ki, işğaldan azad olunan bütün ərazilərimizdə dini-mədəniyyət abidələrimiz, dağıdılmış infrastruktur yenidən qurulacaq, bərpa və təmir olunacaqdır.

**Zümrüd BAYRAMOVA**

# Kiber terrorizm - GÜNÜN PROBLEMİ

ARAŞDIRMA

***Yaşadığımız texnoloji çağ kiber riskləri və kiber təhdidləri ilə aktualdır. Pis niyyətli hakerlər olaraq bilinən qara şapka hakerləri və ya haker qrupları hökumətlər, qurumlar, xəstəxanalar və ya kafelər kimi bir çox quruma və ya təşkilata zərər verə bilər.***



Viruslar, trojan və ya buna bənzər zərərli kodlarla həyata keçirilən və ümumiyyətlə planlaşdırılan bu zərərli davranışlara kiber hücumlar deyirik. Son illərdəki kiber hücumları araşdırdığımızda pul, şantaj və ya siyasi səbəblərdən oğurluq hadisələrinə qədər çox məqsədlə həyata keçirildiyini görə bilərik. Kiber hücumların bir məqsədi ola bilsə də, hücumların heç bir məqsəd olmadan təşkil olunduğunun da şahidi oluruq.

### Bəs kiber-hücum nədir?

Kiber-hücum - kiber-insident yaratmaq üçün informasiya sistemlərinə qarşı kiber-silahın və ya kiber-silah kimi istifadə edilə bilən sistemin qəsdən istifadəsidir. Kompüterlərdə və kompüter şəbəkələrində hücum, aktivin icazəsiz istifadəsi, dəyişdirilməsi, aradan qaldırılması, məhv edilməsi, oğurlanması və ya əldə edilməsi üçün edilən hər hansı bir cəhddir. Dövlətlər arasında kiber hücumlar baş verdikdə, bu proses ”Kiber müharibə” olaraq təyin edilir. Dövlətlərarası casusluq, gizli sənədlərin oğurlanması və casusluq kimi bir çox sahədə kiber hücumlar son illərdə artdı və dövlətlər üçün böyük maddi və mənəvi problemlərə səbəb oldu.

### Kiber-hücumların növləri hansılardır?

- Hədəf sistemin təhlükəsizliyini keçərək məlumatları kopyalamaq
- Açıq mikrofon/kamera dinləmək
- ”Network scanning” dediyimiz şəbəkə axtarışı ilə sistemə sızmaq
- Hədəf sistemdəki bütün istifadə edilə bilən servisləri sıradan çıxarmaq (Denial of Service)
- Hədəflənən şəbəkənin bütün internet servislərini məhv etmək
- Kripto hücumlar ilə şifrələri sındırmaq
- IP gizlətmə və başqa IP-ə keçmək (IP Masquerading)
- İki şəbəkə arasına sızaraq dinləmək və məlumat oğurlamaq (MITM)
- Aldatmaq-Yemləmək (Phishing)

Kiber təhlükəsizlik mütəxəssisləri tərəfindən aparılan araşdırmalara görə, kiber təcavüzkarların ələ keçirdikləri sistemlərdə ortalama 200 gün müddətində aşkar edilmədikləri ortaya çıxdı. Bir sözlə, lazımi təhlükəsizlik tədbirlərini görməmisinizsə, hücuma məruz qalmış ola bilərsiniz. Qurumların və şirkətlərin şəbəkə və sistem infrastrukturları araşdırıldıqda, əksəriyyətinin lazımi qoruma sisteminə sahib olmadığını asanlıqla deyə bilərik. Təhlükəsizliyə gəldikdə investisiya əvvəlcə ağla gəldiyindən təəssüf ki, bir çox qurum və şirkət kiber hücumlardan xəbərdar deyil və təhlükəsizlik tədbirləri görmədikləri üçün bu cür kiber hücumlara məruz qala bilərlər.

Ölkəmiz kiber hücumların ən çox edildiyi ölkələr arasındadır. Dünya ortalamalarına baxdığımızda, kiber hücumlara məruz qalan və ya kiber təhdidlərə ev sahibliyi edən ölkələr arasındadır. Ən çox məruz qaldığımız kiber hücumları aşağıdakı kimi sadalamaq olar.

**Şantaj edənlər:** Şantaj və ya hədə-qorxu üsulu ilə hücumlar ümumiyyətlə qurumlara və ya şirkətlərə qarşı həyata keçirilir. Burada məqsəd hədəf sistemin zəif tərəflərindən istifadə etmək və içindəki məlumatları ələ keçirmək və şifrələyərək oxunmaz hala gətirməkdir. Hədəflərinə çatan kiber təcavüzkarlar hücum etdikləri qurumla əlaqə qurur və oxunmayan göstərdikləri məlumatların kilidini açmaq üçün pul tələb edirlər. Adətən saxta e-poçtla istifadəçilərə göndərilən bu tip hücumda, istifadəçiyə saxta faktura şəklində çatdırılır.

”Phishing” hücumları; Kimlik ovu adlanan ”phishing” hücumları, qarşı tərəfin tamamilə aldatmasına əsaslanan bir üsul olaraq qarşılaşır. Bu hücumun məqsədi hədəf alan şəxsin parollarını və istifadəçi hesablarını tutmaqdır. Kiber-hücum uğurlu olduqda, qarşı tərəfin parolları tutula bilər, bank hesabları boşaldılır və korporativ şəbəkəyə lazımi giriş əldə edilə bilər. Kiber təcavüzkarlar ümumiyyətlə istifadəçiləri bu bankların adlarını bir bankdan və ya bir qurumdan göndərilmiş kimi hazırladıqları saxta e-poçtlarla istifadə edərək hazırlanan saxta saytlara yönləndirirlər. Bu tip hücumlarda, istifadəçiləri ümumiyyətlə istedadlı olduqları və tələyə yönəldikləri tələlər cəlb edir. Hazırlanan saxta saytlar ümumiyyətlə orijinal sayta çox oxşayan bir istifadəçi interfeysi ilə gəlir. Təbii olaraq, istifadəçilər fərqi anlamırlar və sonunda bir hədiyyə olduğunu düşünürlər və tələyə düşürlər.

### Dünyada ən çox baş verən kiber-hücum növləri

İnternet rabitə dizaynındakı zəifliklər, idarəetmə çatışmazlığı, internetin işləməsini təmin edən açıq və şifrələnməmiş sistemlər, zərərli proqram təminatlarının paylanması qabiliyyəti və proqramdakı səhvlər və s. kimi problemlər üzündən fərqli kiber-hücumlara məruz qala bilərik. Əlbətdə ki, kiber hakerlərin təzahürləri və ya siyasi hücumları bütün dünyaya olduğu kimi bir çox quruma təsir etdi. Keçən ilin hücumlarını nəzərdən keçirdiyimiz zaman ”GitHub”-un internet tarixindəki ən böyük kiber-hücumuna məruz qaldığını görürük. ”GitHub” hücum zamanı saniyədə 1.35 terabit məlumatla qarşılaşdı və xidmət ümumilikdə 10 dəqiqə ərzində əlçatmaz hala gətirildi. Bənzər bir hücum 2017-ci ildə ABŞ-ı hədəf almış və kütləvi bir kiber-hücum həyata keçirilmiş və ABŞ-a təxminən 7 milyard dollar zərər vermişdi. ”Spotify”, ”Netflix”, ”WhatsApp”, ”Amazon”, ”PlayStation Network”, ”The Verge”və ”The New York Times” kimi məşhur veb saytları da daxil olmaqla bir çox qlobal şirkət bu hücumdan zərər gördü. Dünyaya baxdığımızda şifrələmə viruslarının, kiber-hücumlarının ön plana çıxdığını görürük.



SİA mövzu ilə bağlı **İKT üzrə ekspert Rəşad Cəfərovun fikirlərini öyrənib:** ”İstər sosial şəbəkələr üzərindən kiber dələduzluq, istərsə də iş fəaliyyətimizdə kiber hücumlara son zamanlar daha teztez rast gəlirik. Düşünürəm ki, bu kimi hallar nəinki azalacaq, hətta günü-gündən daha da artacaq. Çıxış yolu bu kimi hallarla mübarizə aparmaq, önləyici tədbirlər görməkdir: ”Artıq bir neçə ildir ki, ardıcıl olaraq ölkəmizdə kibertəhlükəsizliklə bağlı tədbirlər keçirilməkdədir. Əlbəttə ki, bu tədbirlər maarifləndirmə baxımından çox vacibdir. Ölkəmizdə kibertəhlükəsizliyə cavabdeh olan qurumlar mövcuddur. Qurumlar kiberhücumlara qarşı birgə fəaliyyət göstərməlidir. Hətta deyərdim ki, dövlətlər birgə mübarizə aparmalıdır. Kibertəhlükəsizliyin etibarlı təmin edilməsi üçün maraqlı tərəflərin - dövlətin, özəl sektorun və vətəndaşların tərəfdaşlığını və əməkdaşlığı vacibdir. Bu, tək dövlətin, tək özəl sektorun, ya da tək vətəndaşın bacaracağı məsələ deyil. Bütün ölkələr kibertəhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini etiraf etsələr də, çox təəssüf hələ ki, ciddi addımları görmək olmur”.

Rəşad Cəfərov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, vətəndaşlar arasında maarifləndirməyə böyük ehtiyac var: ”Hər bir vətəndaş kibertəhlükəsizliklə bağlı yetərincə məlumatlı olmalıdır. Bunu artıq zaman tələb edir. Hər kəs fərdi məlumatlarını necə qorumalıdır, kiber dələduzları necə müəyyən edə bilər və sair bu kimi məsələlərdə ayıq olmalıdır. Ən azından emalinə gələn məktubları analiz etmək, təhlükəli görünən fayllardan, saytlardan uzaq durmaq, antivirus proqramlarından istifadə etmək qismən sizin kibertəhlükəsizliyinizi təmin edə bilər. Ümumilikdə isə kibertəhlükəsizliklə vətəndaş, özəl qurumlar, dövlət, hətta dövlətlər birgə mübarizə aparmalıdır. Əks halda bu sahədə təhlükəsiz mühit yaratmaq mümkün olmayacaq. Kibertəhlükəsizliyin təmin edilməsi ümumi işdir”.

Mövzu ilə bağlı **sosioloq Elçin Bayramlı fikirlərini bölüşüb:** ”Ölkəmizdə kiber-hücumlar lap əvvəldən yayılıb. İnternetin, sosial şəbəkələrin inkişafı ilə bağlı bu işlərlə məşğul olan xarici xüsusi xidmət orqanları və yaxud da fırıldaqçı biznes xarakterli şirkətlər quruluşlar bundan istifadə etməyə çalışırlar. Burada iki amil var. Bəzi ölkələrin ictimai, siyasi, sosial əhəmiyyətli nüfuzlu şəxslərin ələ keçirmək, onları şantaj yolu ilə pul almaq məqsədi güdürlər. Təbii ki, bu bir mənəvi, psixoloji terrordur. İnsan hüquqlarına, informasiya gizliliyi məsələlərinə müdaxilədir. Bu məsələnin qarşısı alınmalıdır. Çünki insanın şəxsi əlaqələri, yazışmaları istənilən motivdə olursa olsun başqaları tərəfindən icazəsiz paylaşıla bilməz. Bununla bağlı təbii ki, müvafiq tədbirlər görülməlidir. Məhkəməyə müraciət edərək texniki üsullarla aşkar etmək mümkündür. Bu cür tələlərə düşənlər məlumatsızlıqdan qaynaqlanır. Onlar elə bilirlər ki, şəxsi danışıqlarını, yazışmalarını, videolarını başqa heç kim görə bilməz. Onların müasir informasiya texnologiyalarından, casus proqramlarından



məlumatları yoxdur. Yaxşı olardı ki, ümumiyyətlə sosial şəbəkələrdə, messengerlərdə tanış olmayan insanlarla, xüsusilə də xarici ölkələrdən olan əcnəbilərlə münasibət saxlamaq lazım deyil.

Bundan əlavə günümüzdə maliyyə-bank fırıldaqları da baş verir. İnsanları müəyyən kampaniyalarda, sorğularda iştirak etməyə sövq etməklə onların lazımi məlumatlarını əldə edirlər. Həmin əldə olunan məlumatlardan müxtəlif şirkətlər özlərinə sərf etdiyi şəkildə istifadə edirlər. Ona görə də informasiya təhlükəsizliyi ilə bağlı cəmiyyətimizdə məlumat azdır. Bu barədə maarifləndirmə işləri aparılmalıdır”.

### Kiber-hücumlardan necə qorunmalıyıq?

**1.** Antivirus işlətmək.

Artıq bir çox antiviruslarda bank şifrələrinin qorunmasından təhlükəsizlik divarına qədər (Firewall) bir çox funksiyalar var. Bu səbəbdən komputerinizdə hətta mobil telefonuzda təhlükəsizliyi təmin etmək üçün ilk növbədə antiviruslardan istifadə etməlisiniz.

**2.** Əməliyyat sisteminin Təhlükəsizlik Divarini deaktiv etməyin (Windows Firewall)

Bir çox istifadəçi təhlükəsizlik divarını deaktiv edərək əməliyyat sistemini elə istifadə edir. Bu bir başa cihazınızı kiber təhlükələrə qarşı qorunmasız qoymaqdır. Bu təhlükəsizlik divarı arxa planda işləyən servisləri analiz edərək bilinməyən servislərin internetə çıxışını qadağan edir.

**3.** Modem və ya Router-inizin sistemini yeniləyin

Şəbəkə ilə əlaqə quran cihazların da sistemləri var və bu sistemlərin də müəyyən açıqları ola bilir. Məsələn ”Tp-link” cihazlarda tapılan son açıq ilə şəbəkəyə qoşularaq komputerə müdaxilə etmək mümkün idi. Şirkət tərəfindən yayımlanan yeni sistemlə bu açıq bağlandı. Ona görə də modem və router aldığınızda rəsmi saytına giriş edərək ən sonuncu sistemi yükləyib quraşdırın. Bu sizin kiber təhlükəsizliyini müəyyən dərəcədə təmin edir.

**4.** Təhlükəli görünən saytlardan,tətbiqlərdən və fayllardan uzaq durun.

Əgər, yuxarıda dediyimiz variantları istifadə etmirsinizsə daha da diqqətli olmaq məcburiyyətindəsiniz. Saytlar vasitəsilə ”adaware” tipli viruslar, fayllardan virus və troyanlar, tətbiqlərdən isə virus və soxulcanlar yoluxa bilər. Ona görə girdiyiniz saytlara daha diqqətli olmalısınız, həmçinin hər faylı da yükləmək olmaz.

**5.** Gələn E-mailləri diqqətli analiz edin.

Son illərdə yemləmə (Phishing) üsulundan ən çox e-maillərdə istifadə olunur. ”Apple”, ”Microsoft” kimi şirkətlərin adından istifadə edərək kiber cinayətkarlar yalan məlumatların olduğu e-maillər ilə istifadəçiləri aldadırlar. Ona görə də e-mailləri cavablamadan öncə göndərən mail adresinə diqqətlə baxın.

***Arzu Qurbanzadə***

# Azərbaycan bu gün tarixi Zəfərinin yaratdığı reallıqlarla dünyanın diqqətindədir



## Milli Məclisin deputatı Aydın Mirzəzadənin yap.org.az-a müsahibəsi

***- Aydın müəllim, İkinci Qarabağ savaşının başlandığı 27 sentyabr 2020-ci il tarixindən bizi bir illik zaman ayırır. Tarixi Zəfərimizin fonunda 30 illik işğal dövrünün reallıqları necə görünür?***

- 27 sentyabr bundan sonra Azərbaycan xalqının tarixində çox önəmli bir yer tutacaq. Həmin gün Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücuma keçərək 44 gün ərzində erməni qoşunlarını Azərbaycan ərazisindən qovdu, ərazi bütövlüyümüzü bərpa etdi. Azərbaycan bu günü səbirsizliklə gözləyirdi, buna hazırlaşırdı. Ərazi bütövlüyümüzün təmin edilməsi üçün Azərbaycanın Ermənistana etdiyi ən böyük güzəşt diplomatik danışıqların aparılması idi. Ancaq Ermənistan bunu qiymətləndirə bilmədi. İşğalçı dövlət belə hesab etdi ki, onun çirkin niyyətlərinə Azərbaycan əbədi olaraq dözəcək, dünya Ermənistanı dəstəkləyəcək. Dünya tarixində heç zaman tutulan torpaqlarda dağıntılar aparılmır, qəbiristanlıqlar dağıdılmır, yerli əhali qovulmur. Ermənistan bunun hamısını etdi. Özünün xislətini, əsl mahiyyətini ortaya qoydu.

Azərbaycan xalqı heç zaman işğalla barışmayacaqdı. 1988-ci ildə xalqımızın Ermənistanın Azərbaycan ərazilərinə iddiasına qarşı ayağa qalxması torpağa bağlılığımızın, heç kəsə güzəştə getməyəcəyimizin nümunəsi idi. Baxmayaraq ki, Azərbaycan o zaman başqa dövlətin tərkibində idi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi əsasında hakimiyyətə qayıdışı ilə Dağlıq Qarabağ məsələsində köklü dəyişikliklər baş verdi. Dövlətçiliyimiz möhkəmləndi. Vahid komandanlıq altında silahlı qüvvələr yaradıldı. Ermənistanın işğalının qarşısı alındı. Hər bir sahədə uğurlara imza atıldı, ordu qələbəyə hazırlandı, ölkəmiz beynəlxalq aləmdə öz haqq səsini bütün ünvanlara çatdırdı. Ən əsası isə 30 il ərzində heç bir zaman Dağlıq Qarabağ məsələsi ümummilli məsələlər çərçivəsində arxa plana keçmədi. Hər bir azərbaycanlı ərazi bütövlüyü məsələsini özünün şəxsi məsələsi hesab edirdi.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin apardığı siyasət Azərbaycan dövlətini gücləndirdi. Azərbaycan Silahlı Qüvvələri qarşıya qoyulacaq vəzifələri yerinə yetirəcək qüvvəyə çevrildi. Azərbaycan xalqının milli birliyi təmin olundu. Azərbaycanın bütün resursları ərazi bütövlüyümüzün təmin olunmasına istiqamətləndirildi. Aparılan siyasət Ermənistanın növbəti təxribatının qarşısını alaraq Vətən müharibəsinin başlanmasına, ərazi bütövlüyümüzün təmin olunmasına imkan yaratdı. 44 gündə bir gün də olmayıb ki, Azərbaycan Silahlı Qüvvələri tutduqları mövqedən geri çəkilsinlər. Ermənistana layiq olduğu yer göstərildi. Bu işdə milli birliyimiz, milli ideologiyamız əsas rol oynadı. Cənab Prezidentimizin liderlik qabiliyyəti, onun Azərbaycanın maraqlarını uğurla həyata keçirməsi, hər bir azərbaycanlının etimadını qazanaraq yeni bir tarix yazması bizim üçün çox böyük şərəfdir. Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi üçün həyatını qurban verən 3000-ə qədər şəhidimizi böyük ehtiramla xatırlayır. Onlar bizim tariximizin qəhrəmanları, bizim üçün nümunədirlər. Onların ailələri, yaxınları bizim üçün bir əmanətdir ki, dövlət onlara daim diqqət və qayğı göstərir. Qazilərimizin müalicəsi, onların sosial problemlərinin həlli dövlətimizin diqqətindədir. 27 sentyabrdan başlanan şərəfli yol Qələbəmizlə başa çatdı. Şuşamız, digər torpaqlarımız işğaldan azad edildi. Müharibədən sonrakı dövrdə Azərbaycan qısa zamanda işğaldan azad olunan torpaqlarda infrastruktur layihələri həyata keçirir. Şuşa dirçəldilir. Füzuli Beynəlxalq Hava Limanına ilk təyyarə enişi oldu. Ərazilərimizin minalardan təmizlənməsi, infrastrukturun yenidən qurulması, məcburi köçkünlərin geri qayıtması üçün işlərin görülməsi onu söyləməyə əsas verir ki, 30 il düşmən tapdağı altında qalan, amma azad ediləcəyinə hər zaman əmin olan bu torpaqlarda yeni həyat başlayıb.

***- İşğaldan azad edilmiş ərazilərimizə yeni həyat gətirən bərpa və quruculuq işlərinin miqyasının genişliyi hansı çağırışları, məqamları özündə ehtiva edir?***

- Azərbaycan quruculuq işləri ilə ilk növbədə yaradıcı xalq olduğunu göstərir. Ermənistan işğal etdiyi torpaqları əgər dağıdırdısa, su, elektrik xətlərini, qəbirüstü daşları sökub aparırdısa, Azərbaycan bu ərazilərdə nümunəvi yaşayış məskənləri salır. Dünya Ermənistanla Azərbaycanın, Ermənistan cəmiyyəti ilə Azərbaycan cəmiyyətinin fərqini görür. Eyni zamanda, torpaqlarımızın bərpa edilməsi, yaşayış üçün rahat şəraitin yaradılması göstərir ki, biz bu torpaqların sahibiyik, bu torpaqlara əbədi gəlmişik.

***- Aydın müəllim, alınması möcüzə kimi dəyərləndirilən mədəniyyət paytaxtımız Şuşaya çəkilən Zəfər yolunun tikintisi sentyabrın sonuna başa çatdırılır. Bu yolun mənəvi və strateji əhəmiyyətini necə şərh edərdiniz?***

- Füzuli-Şuşa yolu bu gün torpaqlarımızın bərpası məsələsində mərkəzi yer tutur. Bu, böyük bir regionun mədəniyyət paytaxtımıza çıxışını təmin edir. Bütün yolların Şuşaya aparması inamına gətirib çıxarır. Bu yolun böyük strateji əhəmiyyəti vardır. Zəfər yolu ətrafında olan bölgələrin inkişafına dəstək verəcək. Bu yol Şuşamızı, digər bölgələrimizi turizm mərkəzinə çevirəcək. Həmçinin Zəfər yolunun çəkilməsi Azərbaycan dövlətinin qüdrətini göstərir. Təsadüfi deyil ki, bu gün Ermənistan sosial şəbəkələrində Azərbaycanın qısa zamanda böyük layihələr həyata keçirməsi vurğulanır və öz liderlərinə böyük irad bildirilir. Azərbaycan qısa zamanda nələr edə biləcəyini göstərdi. Təkcə Füzuli-Şuşa yolu, Zəfər yolu çəkilmir. İşğaldan azad edilmiş ərazilərdə 700 km-ə qədər uzunluqda olan yol layihələri həyata keçirilir. Ermənistan sərhədinə qədər böyük bir yol çəkilir. Bu, gələcəkdə Zəngəzur dəhlizinin fəaliyyət göstərməsi üçün böyük rol oynayacaq. İşğaldan azad edilmiş rayon mərkəzlərinin hər birinin bir-biri ilə əlaqəsi üçün yollar çəkilir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan qısa zamanda həmin torpaqları bərpa edəcək və dünya nümunəvi şəhərlərin, kəndlərin, turizm mərkəzlərinin, universitetlərin, fermer təsərrüfatlarının yarandığı bir bölgə görəcək.

***- Ümumiyyətlə, tarixi Zəfərimiz Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və roluna hansı əlavələri edir?***

- Azərbaycan həm ulu öndər Heydər Əliyevin, həm də onun siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində beynəlxalq arenada yüksək nüfuza malikdir. Ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv olması, bir-birinin ardınca beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ünvan seçilməsi, Qoşulmama Hərəkatına üç illik sədr olması Azərbaycanın qazandığı nüfuzu göstərir. Ölkəmizin beynəlxalq münasibətlər sistemində möhkəmlənən mövqeyinin və rolunun nəticəsidir ki, Qoşulmama Hərəkatına üzv dövlətlər Azərbaycanın quruma sədrliyinin daha bir il uzadılması qərarını qəbul etdilər. Qoşulmama Hərəkatının tarixində indiyə qədər belə bir hal olmamışdır. Eyni zamanda, Vətən müharibəsinin nəticələri digər dövlətlərə də kiçik bir dövlətin öz gücünə arxalanaraq suveren hüquqlarını bərpa etməsinin mümkünlüyünü göstərdi. Azərbaycan bu gün tarixi Zəfərinin yaratdığı reallıqlarla dünyanın diqqətindədir.

# Vüqar Rəhimadə: "Azərbaycan və Türkiyə qardaşlığın ən yüksək zirvəsini fəth edib"



**"15 sentyabr tarixə Bakı şəhərinin işğaldan azad olunması ilə düşüb. 103 il bundan öncə Nuru Paşanın və Ənvər Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu qəhrəmanlıqla daşnaq və bolşevik vandallarının qəsbkar niyyətlərinə son verib". Bu fikirləri SİA-ya açıqlamasında YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimadə deyib.**

Onun sözlərinə görə, bu gün də Türkiyə-Azərbaycan münasibətləri özünün ən yüksək mərhələsini yaşayır: "Bu dostluq, qardaşlıq dünyada heç bir başqa ölkələr arasında yoxdur. Düşünürəm ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlər "İki dövlət, bir millət" prinsipi ilə daim yaşayacaq".

V.Rəhimzadə vurğulayıb ki, cənab Prezident İlham Əliyevlə Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan başqanlığında bu qardaşlıq ən yüksək zirvəni fəth edib: "Hesab edirəm ki, bu həmrəylik dünya birliyində hər iki qardaş ölkənin öz arzu və istəklərinə çatmaqda çox böyük rol oynayacaq və bu rol daimi, əbədi olacaq".

***Aysel Məmmədova***

# "Xəmsə" Festivalının IV regional turu keçirilib







Naxçıvan Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun dəstəyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının təşkilatçılığı ilə gənclər arasında "Nizami Gəncəvi ili"nə həsr olunmuş Ümumrespublika Xəmsə Festivalının Naxçıvan Muxtar Respublikasındakı seçmə mərhələsi baş tutub. SİA-nın verdiyi məlumata görə, oyunun keçirilməsində məqsəd gənclərin dünyagörüşünü, zehni inkişafını, intellektual düşünmə qabiliyyətlərini stimullaşdırmaq, onların asudə vaxtını səmərəli təşkil etmək, həmçinin, intellektual oyunların kütləviliyini təmin etməkdən ibarətdir.

Tədbirdə çıxış edən Milli Məclisinin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının icra katibi Anar İbrahimov muxtar respublikada gənclərə və gənclər təşkilatlarına göstərilən dəstək və dövlət qayğısından danışıblar. Həmçinin, dahi şair Nizami Gəncəviyə həsr olunmuş tədbirlərin keçirilməsinin əhəmiyyəti və gənc nəslin dahi şairin poetik irsini daha geniş öyrənməsinin vacibliyi bir daha vurğulanıb. Daha sonra oyunda yarışacaq komandalara uğurlar arzulayıblar.

Oyunda Yeni Azərbaycan Partiyasının Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur və Naxçıvan şəhər təşkilatlarını təmsil edən təmsil edən komandalar iştirak edib. "Bəlli", "Şərtli", "Sirli", "Fərdi" və "Xəmsə" raundundan ibarət olan oyunda ən çox xal toplayan Naxçıvan şəhər təşkilatını təmsil edən komanda I yerin sahibi olaraq, muxtar respublikanı Gəncə şəhərində keçiriləcək ümumrespublika final mərhələsində təmsil etmək haqqı qazanıb.

# Türkiyə-Azərbaycan silah qa

## Bayraqlarımız da, əsgərlərimiz də, şəl

***Sentyabrın 15-də Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 103-cü ildönümü tamam oldu. 1918-ci ildə qazanılmış bu zəfər Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə mühüm hadisə kimi yazılıb. Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi tarixi-siyasi və mənəvi-psixoloji əsaslara söykənməklə Türkiyə-Azərbaycan qardaşlığının rəmzinə çevrilib. Babalarımızın miras qoyduğu bu qardaşlıq köməyi, silah qardaşlığı sonrakı illər ərzində də bir millət, iki dövlətin taleyində zaman-zaman öz təzahürünü tapıb.***



*Bakı, 15 sentyabr 2018-ci il*
*Azərbaycan və Türkiyə prezidentləri Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda*

AZƏRTAC uzaq tariximizə qısa ekskurs edərək vaxtilə Bakının, çağdaş tariximizdə isə Qarabağın işğaldan azad edilməsi kontekstində Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin bəzi məqamlarına nəzər salır.

### Tarixə qısa ekskurs

Bolşevik Rusiyası Birinci Dünya müharibəsindən çıxdıqdan sonra geri çəkilən rus ordusu ilə birlikdə erməni silahlı dəstələri də Cənubi Qafqaza gəldilər. Rusiya hərbçiləri silahlarını həmin vaxta qədər Anadoluda, Borçalıda, İrəvan quberniyasında, Cənubi Azərbaycan və indiki Azərbaycan Respublikası ərazisində qanlar tökən erməni bandalarına vermişdilər. Həmin vaxt Bakıda qurulan sovet hakimiyyəti dinc türk-müsəlman əhaliyə zülm edirdi. 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər yerlərində azərbaycanlılara qarşı törədilən soyqırımının qarşısını nə Transqafqaz Komissarlığı, nə də Transqafqaz Seymi ala bilmədi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Bakı yadellilərin əlində idi. Osmanlı dövləti iyunun 4-də Batumda imzaladığı müqavilə ilə Azərbaycana yardım etməyi üzərinə götürmüşdü. Cümhuriyyətin müraciəti əsasında Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu adlandırılan silahlı qüvvə Azərbaycan istiqamətində yola çıxdı.

Qafqaz İslam Ordusunun Bakıya yürüşünün qarşısını almaq üçün hərəkətə keçən bolşevik Rusiyası



*Bakı, 15 sentyabr 2018-ci il. Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş parad*





*Bakı, 15 sentyabr 2018-ci il. Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş parad*

müharibədə Osmanlının müttəfiqi olan Almaniya ilə avqustun 27-də müqavilə imzaladı. Müqaviləyə görə, Almaniya Bakı neftindən alacağı bəlli pay müqabilində Osmanlı qoşunlarının Kür çayını keçməməsi üçün öhdəlik götürdü. Lakin bu oyunlar Qafqaz İslam Ordusunun yürüşünü dayandıra bilmədi. Bakı şəhəri sentyabrın 15-də azad edildi. Sentyabrın 17-də isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Şəhərin azad edilməsi Bakıya dair iyrənc planları darmadağın etdi.

Qeyd edək ki, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə də bizi ilk olaraq Türkiyə tanıdı. Bu da qardaşlığın bir nümunəsi oldu. Bakı Türk Şəhidliyi abidəsi isə Qafqaz İslam Ordusu döyüşçülərinin xatirəsinə ehtiramdır.

### Azərbaycan torpağında uyuyan türk şəhidlər

Bakı şəhərinin azad edilməsinin yüz illiyi 2018-ci ildə Azadlıq meydanında möhtəşəm paradla qeyd edildi. Azərbaycana gəlmiş Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan bu möhtəşəm tədbiri Prezident İlham Əliyevlə birgə izlədi. Eyni zamanda, iki dövlətin ordularının əsgərləri Azadlıq meydanında yanyana addımladı. Prezident İlham Əliyev paraddakı çıxışında Qafqaz İslam Ordusunun Nuru paşanın rəhbərliyi altında sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsini tarixi hadisə adlandıraraq dedi: "Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır. ...Onların məzarları yan-yanadır. ... onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir".

Həmin paradda çıxış edən Türkiyə Prezidenti vurğuladı ki, şəhidlər fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular. Türkiyə dünyanın 34 ölkə-

# ırdaşlığı: tarix təkrar olunur!

## hidlərimizin məzarları da yan-yanadır


Şuşa, 15 iyun 2021-ci il. "Şuşa bəyannaməsi"nin imzalanması







sində 78 şəhid məzarlığı olan bir ölkədir. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir.

"Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik", - deyən Rəcəb Tayyib Ərdoğan bir əsr əvvəl azərbaycanlıların işğal altında zülm çəkdiyini, Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişinin əhali arasında böyük ümid doğurduğunu xatırlatdı.

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Bunu dövlətimizin başçısı çıxışlarında dəfələrlə vurğulayıb: "Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun".

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli layihələr iki qardaş ölkə arasında yeni körpülər olmaqla, bütövlükdə Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır.

### Tarix təkrar olunur

Ötən il sentyabrın 27-də Azərbaycan Vətən müharibəsinə, qurtuluş savaşına qalxaraq 30 ilə yaxın erməni işğalı altında qalmış torpaqlarını azad etdi. Bu şanlı Qələbədə Türkiyə liderinin, türk xalqının mənəvi-siyasi dəstəyi mühüm rol oynadı. Azərbaycanda bunu yüksək qiymətləndirir, minnətdarlıq duyğuları ilə xatırlayırlar.

Vətən müharibəsinin salnaməsini vərəqləsək, aydın görərik ki, müharibənin ilk günlərindən, ilk saatlarından Türkiyə Azərbaycanın yanında olub. Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işinə öz dəstəyini verib, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və olacağını bəyan edib. Qələbəmizdə mühüm rol oynayan bu siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.

Vətən müharibəsinin hər günü bizim şanlı tariximizdir. Həmin günlərdə paytaxtımız, şəhər və qəsəbələrimiz bir millət, iki dövlətin rəmzi olaraq, Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, əsgər və zabitlərin iştirakı birliyimizi, dostluğumuzu və qardaşlığımızı bir daha bütün dünyaya nümayiş etdirdi. "Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür", - dedi qardaş dövlətin lideri.

Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi münasibətləri yeni səviyyəyə çıxarıb. Bəyannamənin bəndlərindən birində göstərilir: "Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər".

Bu tarixi bəyannamə bir daha təsdiqləyir ki, kökləri dərin olan qardaşlığımız əbədidir. Biz birlikdə güclüyük!

Bir neçə gün əvvəl Laçın rayonunda Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının birgə döyüş atışlı taktiki təlimi keçirilib. Bu, xalqlarımızın, ordularımızın silah qardaşlığına ən yeni nümunədir.

Bu gün ən yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətləri ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin sarsılmaz və əbədi olduğunu göstərir. Tarixi 103 il əvvələ, bəlkə də əsrlərin dərinliyinə gedib çıxan silah qardaşlığımız hər birimiz üçün qürur mənbəyi, güvənc yerimiz olaraq qalacaq.



***Bildiyimiz kimi, Təhsil Nazirliyinin son brifinqdən sonra artıq sentyabr ayının sonundan ali təhsil müəssisələri əyani şəkildə fəaliyyətinə davam edəcək. Bunun üçün isə regionda yaşayan tələbələr şəhərimizə üz tutur. Məlum məsələdir ki, bəzi işbazlar da fürsətdən istifadə edərək kirayə ev qiymətlərini qaldırırlar. Tələbələr üçün yataqxanaların olması isə bu məsələnin ən başlıca həlli yoludur. Tələbə yataqxanası və ya tələbə evi tələbələrin təhsil müddətində kütləvi qaldıqları məkanlara verilən addır. Yataqxanalar, ümumiyyətlə, ailələrinin yaşadığı şəhərdən fərqli bir şəhərdə yaşayan tələbələr tərəfindən istifadə olunur. Yataqxana tələbələri, əsasən, universitet tələbələridir. Yataqxanalar, həm universitetin bir hissəsi, həm də şəxsi ola bilər. Məsələ ilə bağlı SİA olaraq araşdırma aparıb hal-hazırda ölkəmizdə olan tələbə yataqxanalarının vəziyyəti ilə maraqlandıq.***

# Ev, yoxsa tələbə yataqxanası?

ARAŞDIRMA



**Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun yataqxana ilə əlaqədar açıqlaması:** ”Azərbaycan İlahiyyat İnstitutunun yataqxanası, hələlik, obyektiv səbəblərdən mövcud deyildir. Müvafiq dövlət qurumlarımız çalışır ki, bu sahədəki problemimizi həll etsin və ümid edirəm ki, yaxın gələcəkdə yataqxanamız olacaq. Sosial təminatı qənaətbəxş olmayan tələbələrə gəlincə, onlara kirayə yardımı etməyə çalışırıq. Bu mövzuda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu bizə dəstək verir”.

Aqil Şirinovun sözlərinə görə, ali təhsil müəssisəsində təhsil tamamilə ödənişsizdir. ”Tələbələr pulsuz geyim və dərsliklərlə təmin edilir, eyni zamanda təqaüddən



əlavə yemək pulu ödənilir”.

**Təhsil eksperti İlqar Orucovun** fikrincə, Azərbaycanda çox az sayda ali təhsil müəssisəsi var ki, onun tələbə yataqxanası fəaliyyət göstərir və pandemiya səbəbi ilə, əslində, yataqxanası olan universitetlər belə yataqxanaları bağlayıblar, yəni yataqxanalar fəaliyyət göstərmir: ”Ümumiyyətlə, tələbə yataqxanaları universitetin bir hissəsidir. Bizdə ali təhsil müəssisələrinin böyük əksəriyyəti keçmiş SSRİ dövründən qalmış ali təhsil müəssisələridir və onların da hər birinin çox geniş yataqxana kompleksləri vardır. Amma təəssüf ki, Qarabağ savaşı başlayanda bu yataqxanalarda məcburi köçkünlər yerləşdirildi. Hazırda da orada məcburi köçkünlər yaşamaqdadır. Ölkənin böyük ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin yataqxanasından artıq məcburi köçkünlər köçürüldülər. Onlar üçün mənzillər tikildi və yataqxana binaları çox bərbad və baxımsız vəziyyətdə qaldığından ərazi təmizlənib. Hazırda həmin ərazidə yataqxana tikintisi ilə bağlı işlər planlaşdırılır və digər universitetlərdə də eyni zamanda demək olar ki, oxşar vəziyyət hökm sürür. Amma yataqxana bütövlükdə universitetin tərkib hissəsidir. Bizim region universitetlərində Aqrar Universitet, Lənkəran Dövlət Universitetində artıq yataqxanalar fəaliyyət göstərir”.

Ekspertin sözlərinə görə, yataqxananın əhəmiyyəti birinci növbədə ondan ibarətdir ki, burada həm qiymət ucuz olur, həm də tələblərin təhlükəsizliyi təmin olunur. Yataqxanalarda bütövlükdə fərqli rayonlardan gəlmiş tələbələr yaşayırlar. Onlar arasında çox böyük kommunikasiya, dostluq münasibətləri qoyulur, sosiallaşma prosesi daha sürətlə gedir, eyni zamanda rəqabət mühiti formalaşır, çünki, bir otaqda dörd tələbə qalırsa, üçü yaxşı oxuyursa, 4-cü tələbə də məcbur olub oxuyur və eyni zamanda, asudə vaxtını səmərəli keçirilməsi ilə bağlı yataqxanaların çox gözəl imkanları olur. Bəzi yataqxanalarda istirahət, bütövlükdə idman fəaliyyətini həyata keçirmək üçün şərait olur. Mən, Aqrar Universitetin yataqxanasında olarkən çox gözəl bir nümunəni gördüm. Hesab edin ki, o universitetin yataqxanası yenidən qurulub, müasir səviyyədədir, hətta üçulduzlu otel keyfiyyətlidir. Orada oxuyan tələbələrin yaşayışı üçün imkanlar yaradılıb. Eyni zamanda, tələbə yeməkxanası yataqxananın alt mərtəbəsində fəaliyyət göstərir və burada da həm keyfiyyətli, həm də kifayət qədər ucuz yeməklər verilir və təxminən bir tələbənin gündəlik yataqxanada yaşayış xərci bir manata qədərdir, təxminən belə bir məbləğ idi. Yəni bu da cüzi məbləğdir. Eyni zamanda orada tələbə səhər oyanır, gedir bufetdə çayını içir, səhər yeməyini yeyir və bu da çox ucuz qiymətə başa gəlir. Bu baxımdan tələbə yataqxanaları ilə bağlı düşünürəm universitetlər fikirləşməlidirlər. Həmçinin, dövlət də bu məsələdə universitetlərə yardımçı olmalı, onlar üçün yataqxana tikintisi ilə bağlı ərazilər ayırmalıdır. Bu proses, əslində, çox faydalı bir məsələdir”.

**SİA araşdırma apararaq paytaxtda yerləşən əsas ali təhsil müəssisələrinin yataqxanalarının siyahısını təqdim edir:**

Azərbaycan Dövlət Neft və Sənaye (ADNSU)universitetinin 7 binadan ibarət yataqxana kompleksi olub. Onlardan 6-sı sökülərək müasir standartlara cavab verən 1000 nəfərlik yeni yataqxana binası inşa olunur. Eyni zamanda, qeyd olunub ki, yerdə qalan bir binada təmir işləri aparılaraq tələbələrin istismarına verilib. 320 nəfərlik bu binada bir otaqda 3 nəfər qala bilər. Yataqxanada əsasən, əcnəbi tələbələr qalır və onlar buna görə ödəniş edirlər. Yataqxanada qalmaq istəyən azərbaycanlı tələbələr ADNSU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinə müraciət edirlər və onların pulsuz olaraq yataqxanada qalması təmin olunur.

Azərbaycan Texniki Universiteti (AzTU) 5 korpuslu yataqxanasından yalnız birini tələbələrin ixtiyarına verib (digər yataqxanalarda məcburi köçkünlər məskunlaşıb). Təxminən, 80 nəfərin qala biləcəyi yataqxananın bir otağında 4 tələbə yaşaya bilər. Burada yalnız oğlan tələbələr qalır. Yataqxana ödənişsizdir. Universitet yataqxananın xərclərini özü ödəyir.

Azərbaycan Tibb Universitetinin (ATU) 6 yataqxanası var. Onlardan birində məcburi köçkünlər məskunlaşıb. Digərlərinin isə ümumi tələbə tutumu 1256 nəfərdir. Son dörd ildir ATU-nun yataqxanası ödənişlidir. Hazırda ödəniş haqqı aylıq 50 manatdır. Yataqxana təmirdən təzə çıxdığından şəraiti yaxşıdır. Oğlan və qızların qaldıqları binalar ayrıdır. Hər iki cinsdən olan əcnəbi tələbələr isə mərtəbələri ayrı olmaqla eyni yataqxanada qalırlar. Yataqxana üçün qəbul iyulun 10-dan başlayıb. Otaqlar 1 və 4 nəfərlik olmaqla ayrılır.

Azərbaycan Dillər Univeristetindən (ADU) ali təhsil müəssisəsinin oğlan və qızlar üçün ayrıca iki yataqxanası var. Lakin qızlar üçün olan yataqxananın yalnız iki bloku tələbə qızların ixtiyarına verilib və tam təmirlidir. Burada 200 tələbənin qalması üçün bütün imkanlar var. Yataqxanada qalan tələbələr üçün aylıq ödəniş 20 manatdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 5 yataqxanasından dördündə məcburi köçkünlər məskunlaşıb. Yalnız 2 nömrəli tədris binasında fəaliyyət göstərən yataqxanada, təxminən, 200-ə qədər tələbə yerlə təmin edilə bilər.

Bakı Slavyan Universitetinin (BSU) isə 3 saylı qızlar yataqxanası tələbələrin ixtiyarındadır. Yataqxananın 2-4-cü mərtəbələri tamamilə tələbələrə məxsusdur. Birinci mərtəbədə məcburi köçkünlər məskunlaşıb.

Bakı Ali Neft Məktəbinin (BANM) tələbələri isə yeni tədris ilində yeni inşa olunan kampusun 400 çarpayılıq Tələbə evində qalacaqlar.

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Sumqayıt Dövlət Universiteti (SDU), Bakı Dövlət Universiteti (BDU), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) də anoliji vəziyyət yaşanır. Bu təhsil ocaqlarının yataqxanalarında məcburi köçkünlər məskunlaşıb. Bu səbəbdən heç bir tələbəsini yataqxanada yerləşdirə bilmir.

Xəzər Universitetinin yeni tələbə yataqxanası həm yerli, həm də əcnəbi tələbələr üçün mebelli rahat yaşayış şəraiti təklif edir.

Yer: Xəzər Universitetinin ”Neftçilər” kampusuna (3 dəq piyada məsafə) və ”Neftçilər” metro stansiyasına (10 dəq piyada məsafə) yaxın ərazidə yerləşən yataqxana bir sıra xidmətlər təklif edir.

Avadanlıq və xidmətlər:

-Otaqlar: şərik/ortaq otaq (bir otaqda minimum 2, maksimum 4 nəfər)

-Hər otaqda yataq, kiçik siyirtmə, paltar şkafı və stol var

-Ayaqyolu və hamam: ümumidir, otaqlardan bayırda yerləşir

-Mətbəx: mətbəx və saxlama (soyuducu) avadanlıqları ilə təchiz olunmuş ümumi mətbəx/bufet ərazisi

-Paltaryuyan maşın (quruducu ilə), ütü və s. təchiz olunmuş camaşırxana

-Ümumi istirahət otağı: kompüterlər, televizor, divan olan bu otaq sizin və qonaqlarınızın rahatlığını təmin edir

-İnternet: bütün yataqxananı əhatə edən WI-FI

-Saxlama otağı

-Sakit ərazidə yerləşən dərs otağı

Yataqxanada təhlükəsizlik: Yataqxana tələbə və qonaqların təhlükəsizliyini təmin etmək məqsədilə təhlükəsizlik kameraları ilə təchiz olunmuşdur. Bina 24/7 video nəzarətdədir və təhlükəsizlik işçiləri var.

Bakı Slavyan Universitetinin tələbə yataqxanası 1965-ci ildə istifadəyə verilmiş beşmərtəbəli yaşayış binasından ibarətdir. Yataqxananın ikinci- dördüncü mərtəbələri universitetdə dərs deyən bəzi müəllimlər, yerli və xarici tələbələr üçün nəzərdə tutulub. Burada həmçinin tibb məntəqəsi, komendant, yataqxana özünüidarəetmə komissiyası, tələbə şurası üçün də ayrıca otaqlar vardır. Yataqxananın 4-cü mərtəbəsi tamamilə yerli qız tələbələri üçün ayrılmış və bu mərtəbə hər birinin yaşayış sahəsi 18-22 m? olmaqla 22 otaqdan ibarətdir.

Binanın 2-ci mərtəbəsində əcnəbi tələbələr yaşayır. Onlar arasında Türkiyədən, Pakistandan, İran İslam Respublikasından, Çindən, Misirdən, Cənubi Koreyadan, Nigeriyadan və digər ölkələrdən gəlmiş 20-dən artıq əcnəbi tələbə vardır. Bu mərtəbədə 7 otaq birnəfərlik, 8 otaq ikinəfərlik, 15 otaq isə üç nəfərlikdir.

Bakı Slavyan Universitetinin tələbə yataqxanasında kombi sistemi təchiz edilmiş istilik mərkəzi vardır. Otaqlarda ən müasir tipli yataq mebelləri, şkaflar və hər bir tələbə üçün iş masaları quraşdırılıb. Tələbələr asudə vaxtlarını səmərəli keçirmələri üçün kitabxana və tədris otağı onların ixtiyarına verilib. Yeni təmir olunmuş mətbəx isə zəruri avadanlıqlarla təmin olunub. Tələbə yataqxanasının binası telefon və yüksəksürətli internet (Wi-Fi) xətləri ilə təmin olunub.

BSU-nun tələbə yataqxanası Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi 152 ünvanında yerləşir.

***Ayşən Vəli***



# YAP-ın novatorluq mexanizmi: ənənəvi müxalifət örnək götürürmü?

**Hakim partiya yeni ideyalar, təkliflər və müzakirələr fonunda qoyulan vəzifələrin öhdəsindən qısa müddətdə, eləcə də uğurla gəlməyi qarşısına qətiyyətli məqsəd kimi qoyub**

Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyasının (YAP) son qurultayında 5 siyasi təşkilat hakim partiyaya birləşdi və onun sıraları daha da genişləndi. Bu, həm də belə bir nəticəyə gəlməyə zəmin yaratdı ki, YAP-da aparılan struktur dəyişiklikləri və partiyadaxili islahatlar artıq öz bəhrəsini verməyə başlayıb.

Lakin hər şey bununla da başa çatmır. Artıq mövcud proseslərdən belə də nəticə hasil etmək olar ki, hakim siyasi təşkilatın bütün daxili strukturlarında - gənclər və s. qollarında rayon və şəhər təşkilatlarında novatorluq, modern idarəçilik prinsipləri öncüllük təşkil edir. Daha dəqiq desək, yeni ideyalar, təkliflər və müzakirələr fonunda YAP üzərinə götürdüyü vəzifələrin öhdəsindən qısa müddətdə, eləcə də uğurla gəlməyi qarşısına qətiyyətli məqsəd kimi qoyub.

**Son 27-28 ilə yaxın müddət ərzində dəfələrlə blok və s. qurumlarda, hətta partiyalar arasında birləşmə iddiaları irəli sürülsə də...**

Misal üçün, işgörmə potensialı, siyasi bilgisi, yetkinliyi olan gənclər irəli çəkilir, onlara müxtəlif istiqamətlərdə mühüm vəzifələr həvalə olunur. Başqa mühüm strktur dəyişiklikləri də partiyadaxili islahatların davamı olaraq dəyərləndirilə bilər. Bütün bunlar isə əlbəttə ki, partiyanın idarəçilik mexanizmindəki müaisrlik və tərəqqi meyarlarının məntiqi nəticəsidir. Necə deyərlər, zaman yeniləndikcə, tələblər də yenilənir və artır, bütün bunların müqabilində isə proqressiv fəaliyyətin mövcud olması şərtdir.

Lakin bu kimi amillərin radikal müxalifət düşərgəsində görmək qeyri-mümkündür. Hətta yumşaq desək, YAP-la özlərini "ana müxalifət" kimi ictimai rəyə zorla sırıyan Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat və s. bənzər radikal xarakterli partiyaları müqayisə etmək belə doğru hesab edilə bilinməz. Ümumiyyətlə, müxalifət düşərgəsində son 27-28 ilə yaxın müddət ərzində dəfələrlə blok və s. qurumlarda, hətta partiyalar arasında birləşmə iddiaları irəli sürülsə də onların həmin cəhdləri sadəcə baş tutmayıb. Bunun isə ilkin səbəbi həm partiyadaxili mühitdə yaşanan qarşıdurmalar, həm də partiyalararası mənafe savaşlarıdır.

O da əbəs deyil ki, bu reallığı istər birbaşa, istərsə də dolayısı ilə təsdiq edən digər müxalifət partiyaları da var. Onlar da birləşmək, birgə fəaliyyət göstərmək kimi mümkün siyasi vasitələrdən uzaq olduqlarını etiraf edirlər.




**AXP sədri Pənah Hüseyn müxalifət partiyalarının bir araya gəlməsinə niyə inanmır?**

Məsələn, Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn mövzu ilə bağlı mətbuata açıqlamasında bildirib ki, müxalifət partiyalarının birləşmə maraqları olsa da, proses görünmür. Başqa tərəfdən isə partiyaların birləşməsi yox, yeni partiyalaşma prosesinin müşahidə olunduğunu deyən AXP sədri birləşmənin mümkünsüzlüyünə eyham vurur. Həmçinin, əgər iddia edirsə ki, yeni partiyalaşma prosesi gedir, bunu müxalifət partiyalarının uğurları kimi də qiymətləndirmək doğru olmazdı. Bu imkanı onlara yaradan əlbəttə ki, demokratik iqtidardır.

Pənah Hüseyn ehtimal edir ki, müxalifət partiyalarının arasında arzuolunan qüvvələrin fikir mübadiləsi aparıla bilər, ancaq bu da hələlik bir təşəbbüsdür və baş tutub-tutmayacağını indidən demək mümkün deyil. Göründüyü kimi, təşəbbüs, yaxud cəhd hələ ki, yekun nəticə sayıla bilməz.

**Arif Hacılıya sual var: əgər siyasi təşkilatlar birgə fəaliyyət göstərəcəklərsə, nəyə görə birləşmək imkanından istifadə etmirlər?**

Müsavat partiyasının başqanı Arif Hacılı da düşərgə daxilindəki birliyin mümkünsüzlüyünü öz düşüncəsinə görə şərh edib. Hansısa partiyaların bir-biri ilə birləşməsi ilə bağlı hər hansı bir məlumatının olmadığını deyən Arif Hacılı bildirib ki, əslində, siyasi qüvvələrin birliyi dedikdə, siyasi təşkilatların birləşməsi yox, daha çox onların birgə fəaliyyəti nəzərdə tutulmalıdır.

Ancaq Müsavat başqanın bu cür fikir bildirməsi növbəti fikri, daha doğrusu sualı ortaya çıxarır: əgər siyasi təşkilatlar birgə fəaliyyət göstərəcəklərsə, nəyə görə birləşmək imkanından istifadə etmirlər? Misal üçün, YAP-a birləşən digər partiyaların verdikləri qərar kimi.

Maraqlıdır ki, Arif Hacılı bu dəfə də müxalifət düşərgəsində ayrıseçkilik toxumu səpməklə konstruktiv fəaliyyət göstərən, radikallıqdan uzaq olan müxalifət partiyalarını "iqtidarın nəzarətində olan partiyalar" adlandırıb.










**Nədənsə nə Müsavat, nə də AXCP rəhbərliyinin imzalarını dövlətin maraqları naminə yazılan bəyanatda görə bilmədik**

Halbuki, bu partiyalar heç də iqtidarın nəzarətində deyillər, onlar iqtidarın apardığı siyasəti dəstəkləyir, bu istiqamətdə dövlətçiliyin möhkəmləndirilməsi üçün dəstək fəaliyyəti göstərirlər. Biz bunu 44 günlük müharibə zamanı 50 partiyanın imzaladıqları Prezidentə və Ali Baş Komandana dəstək bəyanatlarında da, Şuşa Bəyannaməsinin imzalanması prosesində də gördük.

Lakin nədənsə, nə Müsavat, nə də AXCP rəhbərliyinin imzalarını dövlətin maraqları naminə yazılan bəyanatda görə bilmədik. Bu sualın cavabı isə hələ də radikal müxalifət partiyalarının rəhbərləri tərəfindən verilməyib və verməyə cavabları da yoxdur. Yəni dövlətçilik maraqlarının, onun müdafiəsinin naminə hakim YAP-la atılan birgə addımları "iqtidarın nəzarət etdiyi partiyalar" kimi qiymətləndirməyin özü əslində naşılığın, siyasi yetkinsizliyin bariz göstəricisidir. Bütün bu mənfi cəhətlər isə istər Arif Hacılıda, istərsə də Əli Kərimlidə mövcuddur.

**ADP sədri Sərdar Cəlaloğluna görə, hazırda müxalifət düşərgəsində təmərküzləşmə ilə bağlı heç bir cəhdlər yoxdur**

Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu isə hesab edir ki, partiyaların birləşməsi və təmərküzləşməsi vacib və zəruridir. Belə ki, siyasi partiyaların dağınıqlığı siyasi nəticələr əldə olunmasına ciddi mane olur, ümumi çaşqınlıq yaradır.

ADP sədri hesab edir ki, reallığa qalanda əgər müxalifət partiyaları birləşə bilmirlərsə, özləri öz aralarında ortaq siyasi məxrəcə gəlməyi bacarmırlarsa, bu zaman onların ölkənin siyasi arenasında tıxac yaratmalarına da heç bir ehtiyac qalmır. Belə ki, səmərəsiz fəaliyyət digər partiyaların işlərinə manеə törədir.

Sərdar Cəlaloğluna görə, Azərbaycanda ən yaxşı halda 3-4 partiya olmalıdır. ADP sədri hesab edir ki, hazırda müxalifət düşərgəsində təmərküzləşmə ilə bağlı heç bir cəhdlər yoxdur və partiyalar birləşən zaman bir-birinə güzəştlər edə bilməlidir, ancaq bu da müşahidə olunmur.

Beləliklə, bu kimi faktorlardan belə bir nəticəyə gəlmək olar ki, siyasi partiya idarəçiliyi mexanizminin uğurlu nəticələrinin öyrənilməsi üçün bir sıra müxalifət partiyaları YAP-ın fəaliyyətinə nəzər salmalı, əldə edilən uğurlardan analitik qənaətlərinə gəlməlidirlər. Əks halda, siyasi faəliyyətsizlik onların cəmiyyət, ictimai rəy arasındakı olan-qalan nüfuzlarını da heçə endirə bilər. Yəni heç bir əməli fəaliyyət göstərmədən mətbuata çıxmaqla partiya sədri kimi istənilən məsələlərə münasibət göstərməklə partiya idarəçiliyini əldə saxlamaq mümkün deyildir.

*Rövşən RƏSULOV*

# “Hər bir dərddən olur yaman ayrılıq...”

## *Milyonların sevimlisi Yaqub Zurufçu əbədi dünyasına qovuşdu*

***Nəğmələrdə yaşayan ömür. Neçə qərinələr, illər sevgi dolu mahnılarda yaşandı. Hər ifada vətən, torpaq sevgisi boy atdı. Dolaşdı elimizi, obamızı bu nəğmələr. Həsrət dolu, vüsal dolu nəğmələr. Bir arzu, istək var idi bu nəğmələrdə. Hər birində böyük qəlb yaşayırdı. Azərbaycan deyəndə sanki böyük, ilahi bir eşqi izhar edilirdi.***

İfası, dəsti-xətti ilə bir vokalist və müğənni kimi yaddaşlarda əbədi kök saldı. Bu, Azərbaycanın sevilən müğənnisi, əməkdar artist Yaqub Zurufçudur. Bir çox sənətkarlarının dilindən düşməyən ”Ayrılıq” mahnısına başqa bir nəfəs, həyat verən Yaqub Zurufçu. Bu mahnının bir neçə ifaçısı olsa da, sanki hamı elə ”Ayrılıq”mahnısının müəllifinin Yaqub Zurufçu olduğunu zənn edir. Rəşid Behbudov, Ququş, Barış Manço, Zeki Müren kimi məşhur müğənnilərin ifasında səslənən ”Ayrılıq” mahnısını sanki Yaqub Zurufçu öz dünyasından bütün insanlara bir mesaj olaraq göndərirdi. Ona ikinci həyat bəxş etdi. Bir yanğı var idi bu ifada.

**Fikrindən gecələr yata bilmirəm**
**Bu fikri başımdan ata bilmirəm.**
**Neyləyim ki, sənə çata bilmirəm**
**Ayrılıq, ayrılıq, aman ayrılıq**
**Hər bir dərddən olar yaman ayrılıq.**

Bu gün belə bir nəfəsli ifaçını itirdik. Əbədi mənzilinə yolçu oldu. 1956-cı ildə aprelin 8-də Təbriz şəhərinin Çərandab məhəlləsində anadan olan sənətkar taleyin hökmüdür, yoxsa yazısıdır bilmirəm, sevib-seçdiyi diyarda - Azərbaycanda son nəfəsini aldı. Tərcümeyihalı maraq doğurur. 7 yaşında Fərvərdin Mədrəsəsində təhsilə başlayan Yaqub elə o illərdə Təbrizin uşaqlar proqramında iştirak edib və ”Cücələrim” mahnısı ilə həm Azərbaycan və həm İranda dillər əzbəri olmuşdu. 11 yaşında isə xalq mahnıları və bəstəkar mahnılarıyla tez bir zamanda tanış olan və məharətlə ifa edən Yaqub Zurufçu 15 yaşında Təbrizin Milli Televiziyasında ilk dəfə çıxış edərək ”Evləri Var Xana-Xana”, ”De gülüm gəlsin, ay nənə”, ”Dilbər” mahnısını ifa etmişdir. Müğənni bu istedadını və oxumaq istəyini atasının uzun müddət Bakıda yaşaması və Azərbaycan musiqisinə olan böyük sevdası ilə əlaqələndirmişdi.



Yaqub Zurufçu 19 yaşında Tehran Universitetinin İqtisad fakültəsində təhsil alıb. Eyni zamanda, Tehranın operasının xorunda öz musiqi fəaliyyətini davam etdirib. 1979-cu ildə İranda xalq inqilabından 1 il sonra, 1980-ci ildə İranı tərk edib. Almaniyaya köçən müğənni öz musiqi təhsilinə Hamburq şəhərində başlayıb. Vokal sənəti üzrə diplom alan müğənni daha sonra Amerikanın Florida ştatında Miami şəhərinin Miami Universitetində vokal sənəti üzrə master diplomunu almışdır.Bu illərdə ürəyində Azərbaycan musiqisi sevdası yaşayan Yaqub Zurufçu hər zaman milli musiqi ruhuyla yaşayır və Azərbaycana gəlmək ən böyük arzularından biri olaraq qalırdı. Nəhayət, 1989-cu illərin əvvəllərində Azərbaycanın məşhur müğənnilərindən biri olan Gülağa Məmmədov Almaniyaya səfər edib. Yaqub Zurufçunun ”Ayrılıq” mahnısına çəkmiş olduğu sadə klipi görüb heyrətə gəlib. Azərbaycanın Cənubi və Şimali Azərbaycan adlı hissələrə ayrılmasına həsr edilən klipi Azərbaycana gətirən müğənni bu mahnının televiziyada yayımlanmasına müvəffəq olub və böyük əks-sədaya səbəb olur. Beləliklə, Yaqub Zurufçu 1989-cu ildə Gülağa Məmmədovun dəvəti, Vətən Cəmiyyətinin köməyi ilə ilk dəfə Azərbaycana gəlir. Böyük bir sevgi var idi bu səfərdə. ”Azadlıq” meydanında ”Ayrılıq” mahnısını dizi üstə çöküb oxudu. Bu, başqa bir dünya idi. Xalqın azadlıq eşqi ilə yaşadığı və mücadilə etdiyi bir zamanda belə bir mahnının səslənməsi sanki bir filmin ssenarisi idi. Dünyanın bir çox ölkələrində olmuş sənətkarın Bakıya səfəri başqa bir səfər idi. Musiqisevərlər onu başqa bir sevgi ilə qarşıladılar. O sevgini ömrünün son gününə qədər görmüş oldu.

Azərbaycana çox bağlı insan idi. O da Azərbaycanın işğal altında olan torpaqlarının azad olunacağı günü böyük ümidlə gözləyirdi. Nə yaxşı ki, o günlərin sevincini yaşamaq ona nəsib oldu. Müsahibələrin birində dediyi kimi, ”Şuşa azad olunanda mən Üzeyir bəyi xatırladım. Üzeyirin şəhəri azad olundu. Arzum budur ki, Şuşanın mədəniyyət sarayında Üzeyir bəyin, Bülbülün adına konsert verək. İnanırsınız ki, mən ömrümdə Qarabağa getməmişəm. Azərbaycana ilk dəfə 1989-cu ildə gəlmişəm, o zaman Qarabağda vəziyyət pis idi, oralara gedə bilmədim. Ömrümdə ilk dəfə Qarabağı azad görmək qismətim oldu, bu, mənim üçün möcüzədir”. Vurğulamaq yerinə düşər ki, Yaqub Zurufçu müharibə dövründə Solmaz xanım Şirvanlının sözlərinə bəstələdiyi ”Qarabağ” adlı mahnını da məharətlə ifa etmişdir.

Xatırladaq ki, Yaqub Zurufçu ABŞ vətəndaşı olmaqla bərabər, 15 iyul 2009-cu ildən Azərbaycan vətəndaşlığını da almışdı. 17 sentyabr 2009-cu ildə ”Azərbaycan Respublikasının Əməkdar Artisti” adına layiq görülüb. Görkəmli sənətkar 14 sentyabr 2021-ci ildə 65 yaşında Covid-19 xəstəliyindən dünyasını dəyişdi və əbədi dünyasına qovuşdu. Hər zaman ifası ilə yaddaşlarda yaşayacaq. Allah rəhmət eləsin!

***Zümrüd BAYRAMOVA***

## İQTİSADÇI AÇIQLADI: “Digər sahələrdə qiymət artımı ehtimalı yüksəlir”



””Aİ-95” və ”Aİ-98” markalı benzin Azərbaycanda dövlət tərəfindən tənzimlənmir. Bir neçə il öncə bu dövlət tənzimlənməsindən çıxarılaraq, TARİF şurasının nəzarətindən kənarda saxlanıldı. Belə elan edildi ki, bu sahədə liberal bazar qaydaları, rəqabətli mühit qiyməti tənzimləyəcək”. Bunları SİA-ya açıqlamasında iqtisadçı Natiq Cəfərli deyib.

Onun sözlərinə görə, bu baş vermədi. SOCAR bu bazarda yeganə oyunçuya və istədiyi tərzdə qiymətin qaldırılması ilə bağlı təkbaşına qərar verən bir təşkilata çevrilib. Çünki dövlət tərəfindən tənzimlənmə olmadığını və başqa oyunçuların olmadığını nəzərə alaraq, bir tək SOCAR-ın bu tip benzinləri ölkəyə gətirmək imkanı var. Natiq Cəfərli bu haqda fikrini belə izah edib: ”Beləliklə də, qiyməti onlar təsdiq edir. Əslində, bunu müzakirə etmək lazımdır ki, neft ölkəsi olan Azərbaycan nəyə görə, özü keyfiyyətli benzini istehsal etmir ki, ”Aİ-95” və ”Aİ-98” markalı benzin xaricdən gətirilir. Yəni illər öncə bu haqda qərarlar verilsə də, Azərbaycanda müəyyən neftayırma zavodları tikilmədi. Nəticə etibarı ilə biz xaricdən asılıyıq və xaricdə baş verən qiymət dəyişiklikləri Azərbaycana həmən təsir göstərir. Bu, ”Aİ-95” və ”Aİ-98” markalı benzinin iqtisadiyyatın digər sahələrinə açığı ciddi təsiri yoxdur. Çünki benzinlərdən iqtisadiyyatın hər hansı sahələrində istifadə olunmur. Bu benzinlərdən müasir maşınlarda istehlak olunur. Amma bu, bir gərginlik, təbii ki, yaradır. Bu növ benzinin qiymətinin qalxması digər qiymət artımına səbəb olar düşüncəsi yaranır. Nəticədə, digər sahələrdə qiymət artımı ehtimalı yüksəlir”.

***Turqay***

# “Bunların düşməni öz qurduqları siyasətdir"

***"Biz elə-belə yox, tarixi mənbələrə əsaslansaq, deyə bilərik ki, erməni etnosu, erməni cəmiyyəti meydana gələndən bəri onlar təxribatla məşğuldurlar. Təxribat ermənilər üçün milli bir əlamətdir". Bunları SİA-ya açıqlamasında deputat Nizami Cəfərov deyib.***



Buradan da belə bir nəticə çıxartmaq olar ki, əgər bir erməni varsa, deməli, təxribat var. Çünki ermənilər şərqi Anadoluya, xüsusilə də, Van gölü ətrafına köçəndə onların Bizansa, Səlcuqlara, Osmanlıya münasibəti məlumdur. Cənubi Qafqaza köçürüləndən sonra burada azərbaycanlılara münasibəti də məlumdur. Buna görə də, burada daim ehtiyyatlı olmaq lazımdır. İndi dünya da elə bir mexanizm yoxdur ki, təxribatlarına görə, bir etnos kimi qüsurlarına görə, hansısa etnos məhv olunsun. Amma bununla bağlı bizim ədəbiyyatımızda da var. Mirzə Fətəli Axundzadənin ”Aldanmış Kəvakib” əsərində də var ki, məsələn, İranda ermənilərə münasibətdə hansı siyasətlər yürüdülür. Yəni, bu etnosu bir dövlət, bir siyasət həm təqib etməyə, həm də onları qoruyub-saxlamağa məcbur olub. Ermənilər belə bir ziddiyətli tərcümeyi-halı və taleyi olan bir xalqdır. Rəsmi Bakının erməni təxribatlarına münasibəti məlumdur. Cənab Prezidentimiz bu mövqeyi dəfələrlə bildirib. Yəni burada bizim siyasətimiz yumruq siyasətidir. Bu münasibət birdən-birə dövlətimizin ağlına gəlməyib.

Bu haqda Nizami Cəfərov fikrini belə izah edib: ”Bu qarşı tərəfin illərdir göstərdiyi siyasətin nəticəsidir. Yəni, diplomatiyaya da, sülh danışıqlarına da əl atılıb. Ancaq istər Ermənistan-Azərbaycan münasibətlərində, istər Türkiyə-Ermənistan münasibətlərində heç birinin səmərəsi olmayıb. Hətta, qəribədir ki, ermənilərin özü üçün faydalı olan, önəmli olan hər hansı siyasətə, münasibətə özləri etiraz edir. İndi də budur. Biz regionda gedən prosesləri, hadisələri artıq idarə edirik. Burada da məqsəd yenə odur ki, Ermənistan regionun normal ölkəsi həddinə çatsın. Amma yenə də müqavimətlə qarşılaşırıq. Burada da yenə ziddiyətlər var ki, bunu ermənilər istəmir, yoxsa ermənilərin ”havadarları” istəmir. Amma bir məsələ məlumdur ki, ermənilərə və Ermənistana münasibətdəki rəsmi Bakının siyasətinin əsaslandığı bir məsələ var. O da budur ki, Azərbaycanın əhalisi təxminən yeddi milyondan on milyona qalxıb. Amma Ermənistanın əhalisi müstəqillik dövründə hardasa 4-5 milyondan 2 milyona enib. Az qala yarıbayarıdan çox azalıb. Bu nə deməkdir? Bu o deməkdir ki, Ermənistan müstəqil olmasına baxmayaraq öz xalqını yaşada bilmir. Bu dövlət bu xalqa mənsub deyil. Öz qurduqları dövlətdi, yəni bu da o deməkdir ki, bunların düşməni öz qurduqları siyasətdir. Bax belə münasibətdə idarə edilməz etnosdur və burada yumruq siyasətinə olmalıdır”.

***T. Musayev***



# Anti-Azərbaycan dairələrin çirkin planları necə alt-üst edildi?

*Xalqımızın bir yumruq kimi böyük amallar və müqəddəs qayələr uğrunda birləşməsi tarixi qələbəmizin qazanılmasında böyük rol oynadı*

***Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan tarixi Qələbə qazandı. 28 illik erməni işğalına son qoyuldu, Qarabağ Azərbaycana qaytarıldı. Tarixi ədalət bərpa olundu, respublikamızın ərazi bütövlüyü təmin edildi. Ali Baş Komandan İlham Əliyevin hərtərəfli düşünülmüş daxili və xarici siyasəti, hərbi-siyasi strategiyası, ordumuzun şücaəti və yüksək peşəkarlığı, xalqımızın milli həmrəyliyi və birliyi sayəsində silahlı qüvvələri darmadağın olan işğalçı ölkə diz çökdü və kapitulyasiya aktına imza atdı.***

Azərbaycan 44 günlük Vətən müharibəsindəki tarixi Zəfəri ilə yeni reallıqlar yaratdı. Bütün dünyaya gücünü, qüdrətini bir daha nümayiş etdirdi. Bu, belə də olamlı idi. Çünki ölkəmizin başçısı daim vurğulayırdı ki, Azərbaycan xalqı heç zaman bu işğalla barışmayacaq və öz tarixi torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Mənfur düşmən üzərində tam qələbə qazanana qədər mücadilə edəcək: "Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə riskləri-ni artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Təəssüf ki, başda AXCP sədri Əli Kərimli, "Milli Şura" adlı amorf qurumun rəhbəri Cəmil Həsənli və onların tör-töküntüləri olmaqla məlum antimilli qüvvələr, siyasi mühacir adı ilə ayrı-ayrı xarici ölkələrdə məskunlaşaraq anti-Azərbaycan dairələrin maşası rolunu oynayan satqın, xəyanətkar və cinayətkar zümrədən ibarət "beşinci kolon" nümayəndələri sosial şəbəkələrdə ictimai rəy ilə manipulyasiya edərək təxribat və dezinformasiya xarakterli məlumatlar yaymağa cəhd edir, qələbəmizin əhəmiyyətini azaltmaq, üzərinə kölgə salmaq üçün öz ləyaqətsiz əməllərini hələ də davam etdirirlər. Təbii ki, dağıdıcı müxalifət düşərgəsində cəmləşən "sapı özümüzdən olan baltalar"ın bu səylərinin xidmət etdikləri anti-Azərbaycan dairələrin siyasi sifarişlərinə söykənməsi, onların dəyirmanına su tökməsi, xalqımıza və dövlətimizə, ən əsası isə tarixi Qələbəmizə qarşı "qara piar" kampaniyası aparması cəmiyyətimizdə ikrah və nifrəti hissə ilə qarşılanır. Şübhəsiz, bu antimilli ünsürlərin bütün cəhdləri iflasa uğrayacaq. Çünki bu gün II Qarabağ müharibəsindəki möhtəşəm Qələbəmizin sonsuz qürurunu və sevincini yaşayan xalqımız öz güclü, qətiyyətli, vətənpərvər lideri ətrafında daha sıx, monolit şəkildə, dəmir yumruq kimi birləşərək düşmənlərimizin köləsi, buyruq qulu olan bu üzdəniraq ünsürləri birmənalı olaraq rədd edir. Hər bir vətəndaşımız yaxşı anlayır ki, Qarabağın düşmən işğalından azad edilməsində, tarixə qızıl hərflərlə yazılacaq möhtəşəm qələbəmizin qazanılmasında milli birliyimiz və həmrəyliyimiz, böyük amallar və müqəddəs qayə uğrunda birləşməyimiz böyük rol oynadı.

2020-ci il noyabrın 8-də, Qarabağın tacı Şuşanın işğaldan azad edildiyi gün Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olarkən dövlətimizin başçısı bildirdi ki, bu gün ölkə daxilindəki həmrəyliyimiz, milli birliyimiz mənfur düşməni və onun havadarlarını xar etdi. Bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirə bilmədi. Halbuki belə planlar və cəhdlər var idi: "Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın... Siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".

# Avropa yenə də öz ordusunu yaratmaq istəyir...

Bu günlər Avropa Birliyində ortaq bir Avropa ordusunun yaradılmasından danışırlar, lakin mütəxəssislər bunun bir çox zəif cəhətlərinin olacağını və ən böyük problemin isə siyasət olduğunu söyləyirlər. Qeyd edək ki, ortaq bir Avropa ordusunun yaratmağın hər şeydən əvvəl ruslara qarşı hesablandığı da şübhə doğurmur

Məhz bunları nəzərə alan "The National Interest" nəşri xəbərdarlıq olaraq yazır ki, Rusiya kimi böyük bir yüksək texnologiyalı rəqiblə mübarizə aparmaq üçün xüsusi sistemlər - hava örtüyü, hava nəqliyyatı, elektron avadanlıqlar, kəşfiyyat və daha çox tərəfindən dəstəklənən bölmə və briqadalara ehtiyacınız olacaq.

Bu arada "Charles de Gaulle" də bununla bağlı maraqlı bir sualını verib: "246 fərqli pendir növü olan bir ölkəni necə idarə edə bilərsən?" Yəni bunu belə də demək olardı ki, 24 rəsmi dili olan 28 ölkənin bir ordusuna hansı dildə və necə komandanlıq ediləcək?

Gərək ki, yadınızda olar, bir vaxtlar Fransa prezidenti Emmanuel Makronun yaradılacaq Avropa ordusunun ABŞ-a güvənmədən Avropanı Rusiyadan müdafiə etməsinə çağrışı böyük səs -küyə səbəb olmuşdu.

Təbii ki, Avropa ordusu ilə bağlı deyilənlər hələ ki, layihə olsa da, amma yaradılacağı təqdirdə belə potensial ümumi Avropa ordusunun bir çox zəif cəhətləri olacaq, amma burada ən böyük problem, dediyimiz kimi, siyasətdir.

Əvvəla qeyd edək ki, Avropa Birliyi daha çox iqtisadi blokdur, yeni Brexit və populist hərəkatlar qitə inteqrasiyasına yaxşı heç nə vəd etmir. Məsələn, Britaniya rəsmiləri bu gün artıq Avropa Birliyinin ordu qurmaq fikrini NATO-nu sarsıtmaq və təkrarlamaq kimi rədd ediblər.

...Yaxşı, təsəvvür edək ki, Avropa ordusu yaradıldı, bəs bu ordunu savaşa göndərmək qərarını kim verəcək? Avropa Birliyindən danışırıqsa, yeni bir ölkəni bloka qəbul etmək üçün indiki kimi bütün Avropa Birliyi ölkələrinin yekdil qərarına ehtiyac olacaqmı? Və yaxud, Norveç və Yunanıstan nəyə görə mübarizə aparmağa dəyər olduğuna dair fərqli fikirlər səsləndirir?



Təbii ki, Avropa Birliyi dövlət xidməti kimi siyasi olmayan bir qurumdursa, seçilməmiş bürokratların müharibə və barış haqqında qərar verməsi ilə bağlı şikayətlər olacaq. Bundan əlavə Avropa ordusu əsasən Fransa və Almaniya qoşunlarından ibarət olacaqsa, onda bu nə qədər maraqlıdır?

Qeyd edək ki, bu gün milli qürur və tarix Avropa ölkələrini öz ordularını qorumağa məcbur edir, bu da ümumavropa ordusu üçün daha az resurs buraxır. Resurslar baxımından, 29 NATO üzvündən yalnız 4-ü müdafiə üçün ÜDM-in 2 faizini xərcləmə həddinə çatdığını nəzərə alsaq, ümumi Avropa qüvvələri daha yaxşı maliyyələşdiriləcəkmi? Bundan əlavə, bu gün Avropa ölkələrinin mövcud silahlı qüvvələrini qorumaq üçün kifayət qədər problemləri var, məsələn, qabaqcıl Alman Tayfun döyüşçülərinin əksəriyyəti hazırda yararsız vəziyyətdədir.

Maraqlıdır ki, avropalıların hərbi problemlərini siyasi çətinliklər qədər mürəkkəb olmadığını yazan rus saytları, bəlkə də elə istehza ilə "...çox şey Avropa qüvvələrinin nəyə sərf olunacağından asılı olacaq"-deyə bildirirlər. Onların təəbirincə, "...Birləşmiş güc olaraq Avropa nəhəngdir - vahid Avropa Birliyi iqtisadiyyatı dünyanın ikinci ən böyük iqtisadiyyatıdır, lakin siyasi inteqrasiya olmadan Avropa iqtisadi gücünə bərabər hərbi gücdən istifadə edə bilməz. Bir gün Avropa ordusu 246 növ pendirin fondu kimi formalaşa bilər. Ancaq hazırda Avropa fərdi yeməklərdən ibarət bir bufetdir". Bunu da ruslar, dəqiqi desək rus saytları yazır.

***Ağasəf Babayev***

# "ABŞ-ın Ermənistandakı səfirinin səsləndirdiyi fikirlər ciddi qəbul edilmir"

"Məlum olduğu kimi, ABŞ-ın İrəvandakı səfiri Linni Treysi Azərbaycan tərəfinin qəti addımlarını artıq qaçılmaz edən bəyanat verib. Səfir xanımın dediklərindən: "Biz ABŞ olaraq Azərbaycanı və Ermənistanı Minsk qrupu çərçivəsində danışıqların bərpasına cəlb etmək üçün hər şeyi edirik Biz hesab etmirik ki, Dağlıq Qarabağın statusu həll edilib. Status məsələsi Minsk qrupunun gündəmində hələ də dayanır". "Tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etmək mandatı ATƏT-in Minsk qrupu həmsədrlərinə həvalə edilsə də, onlar tərəfindən bu istiqamətdə konkret bir iş görülmədi, işğal və hərbi cinayət törətmiş Ermənistana qarşı da heç bir təzyiq göstərilmədi". SİA-nın məlumatına görə, bu fikirləri Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdiyini qeyd edən N.Həmzəyev bildirib ki, işğalçı ölkə BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymaması ilə yanaşı, hətta onlar buna görə cəzalandırılmadı: "Hər dəfə Prezident İlham Əliyev çıxışlarında bununla bağlı qeyd edirdi ki, biz münaqişənin həll edilməməsinə razı deyilik, biz susmayacağıq, əgər problem sülh yolu ilə həllin tapmırsa biz müharibə yolu ilə torpaqlarımızı işğaldan azad edəcəyik. Bu cür də oldu. Belə ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu əks hücuma başladı və müharibə yolu ilə torpaqlarını işğaldan azad etdi. Bununla da erməni terroristləri, faşistləri ərazilərimizdən qovuldu. Göründüyü kimi, 30 ilə yaxın müddət ərzində ATƏT-in Minsk qrupunun edə bilmədiyini Azərbaycan Ordusu 44 gün ərzində etdi. Beləliklə, ərazi bütövlüyümüz bərpa edildi. Bütün bunlarla yanaşı, biz Azərbaycan ərazisində yaşayan erməni əsilli vətəndaşlara da ölkəmizin qanun və qaydaları çərçivəsində yaşamaq hüququ verdik. Sözsüz ki, burada onların yeganə çıxış yolu məhz Azərbaycana sığınmaq və onun qanunları çərçivəsində yaşamaqdır".




Deputat onu da qeyd edib ki, Ermənistan tərəfi məğlubiyyətlə barışmaq istəmir: "Onlar hər vəchlə müxtəlif versiyalar, ideyalar irəli sürməkdədirlər. Xüsusilə də ATƏT-in Minsk qrupunun fəaliyyətini yenidən canlandırmağa cəhd göstərirlər. Bununla da onlar hazırkı vəziyyəti uzatmaqla münaqişənin nə zamansa yenidən alovlanması ilə vəziyyəti öz xeyirlərinə dəyişməyi düşünürlər. Ancaq bildiyimiz kimi, Azərbaycan mövqeyini ortaya qoyub. Ölkəmizin bütün sərhədboyu əraziləri güclənir. Bütün strateji zirvələr Azərbaycanın nəzarəti altındadır. Ən əsası da Azərbaycan 44 günlük Vətən müharibəsində nəyə qadir olduğunu ortaya qoydu. Artıq Azərbaycan qalib və diktə edən tərəfdir. Bu baxımdan, ABŞ-ın Ermənistandakı səfirinin səsləndirdiyi fikirlər heç də reallığı əks etdirmir və bizim tərəfimizdən də ciddi qəbul edilmir. Çünki biz münaqişənin sona çatdığını dəfələrlə qeyd etmişik. Bu arada biz ATƏT-in Minsk qrupunun həmsədrlərindən də real addımlar görmədik. Beləcə, Azərbaycan təkbaşına bu işi öz öhdəsinə götürdü. Hətta regionun əsas aparıcı dövlətləri olan Rusiya və Türkiyə də ölkəmizin mövqeyini dəstəklədilər. Artıq regionda yeni reallıqlar yaranıb. Bu reallıqlar Azərbaycanın da təklif etdiyi kimi, "3+3" formatında daha real inkişaf edə bilər. Sözsüz ki, burada Ermənistanın da yeganə çıxış yolu Azərbaycanın ərazi bütövlüyünü tanımaq, ölkəmizin sərhədlərinin tanınması prosesinə start vermək və sülh müqaviləsini imzalamaqdır. Əks təqdirdə bu, heç də işğalçı ölkənin xeyrinə olmaz".

yap.org.az

# “Qrantyeyən rusofobları qrantyeyən millətçilər əvəz edəcək”

## Ermənİ alimin etirafları

***Söhbət artıq Qarabağdan yox, bütün ermənilərin xilasından və ermənilərə məxsus olanın qorunmasından gedir. SİA xəbər verir ki, bu sözləri iqtisadçı alim Arutyun Mesropyan sentyabrın 15 -də jurnalistlərlə görüşündə söyləyib. İqtisadçıya görə, Ermənistanın başına gələn fəlakət çoxdan planlaşdırılmışdı. Mesropyan hesab edir ki, mövcud vəziyyətdən və mənəvi tənəzzüldən çıxmaq üçün sərtlik göstərmək lazımdır.***



”Ukraynada inqilabdan sonra millətçilər hakimiyyətə gəldi. Az qala onlar ölkəni məhv edəcəkdilər. Bundan sonra onları liberal adlandırılanlar əvəz etdilər. Ermənistanda isə hər şey fərqlidir. Bizim üçün fərqli bir ssenari hazırlanmışdır. Xalqına, ölkəsinə, milli dəyərlərinə və adət-ənənələrinə əhəmiyyət verməyən insanlar hakimiyyətə gəldilər. Onlar qrant hesabına yaşayırlar. Bunlar müstəsna rusofoblardır. Onların yerini başqa qrant yeyənlər - millətçilər tutacaq”, deyə iqtisadçı qeyd edib.

O, eyni zamanda xatırladıb ki, Ermənistanda bu cür təzahürlər dünən yaranmayıb. Mesropyana görə, qrant yemək hər üç prezidentin dövründə olub və onlar qalan bütün məsələlərə dırnaqarası baxıblar, saymaz yanaşıblar.

***İnam Hacıyev***

# Meksikalı jurnalist Ermənistanın hərbi cinayətləri barədə yazıb

Meksikanın ən nüfuzlu mətbu orqanlarından olan ”El Universal” qəzetində ötən ay Azərbaycanın işğaldan azad edilmiş ərazilərində səfərdə olmuş, sözügedən qəzetin redaktoru, beynəlxalq siyasi məsələlər üzrə ekspert və Meksikada keçmiş Ermənistan-Azərbaycan münaqişəsi haqda ən çox məlumatlı olan jurnalistlərdən biri Qabriel Moyssenin ”Azərbaycan bərpa edir” (”Azerbaiy?n, en busca de la reconstrucci?n”) başlıqlı geniş məqaləsi dərc olunub.

Azərbaycanın Meksikadakı Səfirliyindən Trend-ə verilən məlumata görə, işğaldan azad edilmiş Fizuli, Cəbrayıl, Ağdam və Şuşa, həmçinin Gəncə şəhərlərində səfərdə olmuş jurnalist yazısında 30 ilə yaxın işğalda saxlanılmış ərazilərimizdə Ermənistanın apardığı kütləvi minalanmadan bəhs edərək, 44 günlük müharibədən sonra bu günədək yüzlərlə hərbi və mülki azərbaycanlının erməni minalarının qurbanı olduğunu bildirir. Bu xüsusda, Latın Amerikasından olan bir qrup jurnalistlə birlikdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri çərçivəsində ANAMA tərəfindən aparılan minatəmizləmə işlərinin şahidi olduğunu qeyd edir. Jurnalist həmçinin, Ermənistan silahlı qüvvələri tərəfindən uzun illər işğal dövründə bu ərazilərdə yüz minlərlə minanın yerləşdirildiyi, Ermənistanın mina xəritələrini verməkdən imtina etdiyi barədə məlumat verir, bunun isə həmin ərazilərdə aparılacaq bərpa və yenidənqurma işlərini, habelə bir milyondan artıq qaçqın və məcburi köçkünün öz yurdlarına qayıtma prosesi qarşısında ən böyük maneə olduğunu vurğulayır.

Jurnalist yazısında Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Elnur Məmmədovdan götürdüyü müsahibəyə istinad edərək, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsinin və sərhədlərin delimitasiyasının Azərbaycan hökuməti qarşısında duran prioritet məsələlərdən olduğunu, lakin Ermənistan tərəfindən bu məsələlərlə bağlı konstruktiv yanaşmanın olmadığını bildirir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayevanın sözlərinə istinad edən jurnalist, sadəcə Ağdam şəhəri ətrafında 97 min partlamamış minanın olduğunu qeyd edir. Yazıda L.Abdullayevanın ”Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərinə üçtərəfli bəyanatı dəstəkləmələri və yeni reallıqları nəzərə alaraq təkliflərin verilməsi barədə müraciətinə baxmayaraq, onlar tərəfindən bugünədək heç bir təklif verilməyib” fikrinə istinad olunur. Latın Amerikası ilə əlaqələrdən bəhs edən L.Abdulayevanın Azərbaycanın 2019-cu ildən etibarən Sakit Okean Alyansında müşahidəçi statusunu aldığını xatırladaraq ”coğrafi məsafələrin artıq turizm, iqtisadi və mədəni sahələrdə əlaqələrin inkişafına maneə yaratmamalıdır” deyə vurğuladığı bildirilir.

Jurnalist həmçinin Cəbrayıl, Ağdam və məqalədə Azərbaycanın mədəniyyət beşiyi kimi istinad etdiyi Şuşaya səfərindən bəhs edir, orada yaşayış məskənlərinin dağıdıldığını, tarixi-memarlıq abidələrinin erməni vandalizminə məruz qaldığının şahidi olduğunu təəssüflə qeyd edir. Cəbrayılda müsəlman qəbiristanlığının ermənilər tərəfindən dağıdılaraq, burada qəbir daşlarının sındırılmasının, qəbirlərin qazılaraq cəsədlərin çıxarılmasının şahidi olduğunu qeyd edən jurnalist, bu mənzərədən çox təsirləndiyini və bu vandalizmin insanlıqla bir araya sığmadığını vurğulayır. O həmçinin yazısında, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə səfər etdikləri və hərbi əməliyyatların aparıldığı bölgədən kənarda yerləşən bu şəhərin ermənilər tərəfindən ballistik raketlərlə zərbə endirilməsi nəticəsində günahsız insanların öldürüldüyü, yüzlərlə insanın yaralandığı və böyük dağıntıların yarandığı barədə məlumat verir.

Meksikalı ekspert işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən artıq intensiv şəkildə bərpa və yenidənqurma işlərinin həyata keçirdiyini və bu şəhərlərin tezliklə əvvəlkindən də gözəl, baxımlı hala gətiriləcəyini qeyd edir. Məqalədə həmçinin, yaxın zamanda açılmış Füzuli beynəlxalq hava limanı və ”ağıllı şəhər” konsepsiyası sayəsində bu ərazilərə yatırılan investisiyaların miqdarının çoxalacağı və geniş iqtisadi imkanların yaradılacağı qeyd olunur.

Yazıda müasir Azərbaycanın iqtisadi nailiyyətləri, bu xüsusda, həyata keçirdiyi iri miqyaslı enerji və nəqliyyat-infrastruktur layihələri, Azərbaycan ərazisində əlverişli biznes imkanları barədə məlumat verilir.

Sonda, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin sözlərinə istinad edən meksikalı jurnalist, ABŞ, Fransa və Argentinadakı nüfuzlu erməni diasporu tərəfindən dəstəklənən revanşist qruplaşmaların səylərinə baxmayaraq, Ermənistanla Azərbaycan arasındakı gərginliyin müharibənin yenidən başlanmasına səbəb olacağının istisna edildiyini və Azərbaycanın münaqişəyə birdəfəlik son qoyduğunu bildirir.

Qeyd olunmalıdır ki, ”El Universal” qəzetinin internet portalında məqalə ilə əlaqədar videosüjet yayımlanıb. Həmçinin məqalədə reallıqları əks etdirən foto və infoqrafik



AZERBAIYÁN, EN BUSCA DE LA RECONSTRUCCIÓN

Tras el cese al fuego con los armenios, el gobierno del país señala que **desminado y delimitación de fronteras son las prioridades**; sin embargo, no son tareas fáciles

Una mina antitanque es detonada a distancia, sin causar daño, por los equipos de la Agencia de Acción contra las Minas de la República de Azerbaiyán.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# RSK mandat istəsə də Bakının öz planları var!

***İnformasiyalara görə, rəsmi Bakının Rusiya sülhməramlıları kontingentinə (RSK) mandat verməməsinə səbəb tərəflər arasında fikir ayrılıqları ilə bağlıdır. Fikir ayrılıqları isə üç kateqoriyaya aiddir:***

**1.** Erməni tərəfi (Ermənistan respublikası deyil, məhz tərəfi!) üçtərəfli razılaşmanın müvafiq bəndlərinə əməl etməyərək, RSK-nın Qarabağa daxil olduğu zaman paralel şəkildə erməni güclərini (yalnız Ermənistanın silahlı qüvvələri deyil, bütün erməni silahlıları!) oradan çıxarmayıblar.

**2.** RSK Laçın dəhlizindəki hərəkətləri oradakı nəzarəti tam olaraq təmin etmir, xarici vətəndaşların və xarici avtomobillərin keçidlərinə imkanlar yaradır, eləcə də silahlı erməni hərbçilərinin də Qarabağ ərazisinə sızmalarına barmaqarası baxır.

**3.** Bakı mandatı imzalayacağı təqdirdə üçtərəfli bəyanatda irəli sürülən tələblərin yerinə yetirilməsinə tam qane olmalıdır, həmçinin RSK-nın Qarabağda qalma müddəti məsələsində də qərarı məhz o (Bakı) verməli, RMK-nın çıxmasında onlar tərəfindən heç bir əngəl yaşadılmayacağı zəmanətini almalıdır.

Maraqlıdır ki, Moskva erməni güclərinin və silahlı dəstələrinin Qarabağdan çıxarılması məsələsində sözün əsl mənasında ”nala-mıxa” döyəcləyir, guya RSK-nın qarşı tərəfin (ermənilərin) çıxarılmasına məcbur edilməsi yönündən təsir etmək mexanizminə malik olmadığını (?!) bildirir. Halbuki, bu çox gülünc və izaholunmaz bir bəhanədir ki, Rusiya sülhməramlıları guya (!) erməni silahlılarının çıxarılması prosesində aciz qalıb və s. Halbuki, bir əmr üçtərəfli bəyanatda qeyd edilən məlum bəndi işlək vəziyyətə gətirə bilər.

Sözsüz ki, Bakı qətiyyətlə bu bəhanəni rədd edir və tələb irəli sürür: ya RSK üzərinə götürdüyü öhdəliklərinü əməl etsin, ya da çəkilsin kənara və prosesi Azərbaycan Silahlı Qüvvələri çox qısa müddətdə həyata keçirsin. Göründüyü kimi, bu məsələdə də ümumi konsensus yoxdur.

Laçın dəhlizi məsələsinə gəlincə isə RSK əvvəlcə ona qarşı sürülən iddiaları yaxınına belə buraxmırdı, lakin Azərbaycanın ortaya çıxardığı danılmaz faktlarından və sübutlarından sonra ümumiyyətlə, bu mövzuya toxunmamağa çalışırlar, yəni susurlar. Susmaq isə razılıq əlamətidir, ruslar Laçın dəhlizi məsələsində irəli sürülən ittihamlara qarşı susurlarsa, deməк ki, hansı pozuntulara yol verdiklərini dolayısı ilə etiraf edirlər!

Belə olan halda isə Bakı suveren ərazilərinin toxunulmazlığı ilə yanaşı, sözügedən mandatı da imzalamaya bilər və bu, Moskvanın imicinə ciddi zərər vuracaq ki, həmin məsələ barədə Azərbaycan deyil, məhz Rusiya düşünməlidir.

Bu gün bəzi rus politoloqlarının üçtərəfli bəyanatın ”dəqiq və ikibaşlı olmaması” və ya bəyanatın detallarının incələnməsinə ehtiyacın olmaması barədə iddiaları isə sadəcə küləklə sovrulan saman təsirini bağışlayır. Bakının arqumentləri qəti və ədalətlidir: yəni bizim üçün RSK-nə mandatın verilməsi prosesini uzatmaq heç də çətin deyil. Nə vaxta qədər ki, Moskva erməni silahlılarının Qarabağda qalmasına göz yumacaq, Laçın dəhlizində qanunsuzluqların baş verməsinə barmaqarası baxacaq və mandat tələb edəcəksə, qoy belə də qalsın. Bakı isə istənilən zaman, istədiyi vaxta qarşısına qoyduğu məqsədlərinə tam şəkildə çatması üçün öz ərazilərində gözlənilməz (həm də gözlənilən) addımlarını atacaq. Buna isə artıq heç bir şübhələr qalmır. Beləliklə, RSK mandat istəsə də, Bakının öz planları var!

# Yegor Lebedok: ”Azərbaycan Belarusun alternativ neft təchizatçısıdır”

**Azərbaycanla Belarus arasında dostluq və sıx əməkdaşlıq münasibətləri mövcuddur. İki ölkə çətin anlarda bir-birinə həmişə kömək ediblər. Həm siyasi, həm iqtisadi, həm elmi-texniki, həm hərbi, həm də mədəni sahələrdə bu əlaqələr getdikcə dərinləşir. Belarusun özünəməxsus inkişaf ənənəsi var, bu günlərdə isə Rusiya ilə müxtəlif sahələrdə əməkdaşlıq və inteqrasiya ilə bağlı ittifaq sazişi imzalayıb. Bu, Azərbaycanla Belarus arasında iqtisadi əlaqələrə necə təsir edə bilər? Belaruslu politoloq Yeqor Lebedok ”Caliber” analitik mərkəzinə müsahibəsində bu məsələlərlə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*QEYD: Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***- Bu yaxınlarda Rusiya prezidenti Vladimir Putin və Belarus prezidenti Aleksandr Lukaşenko İttifaq Dövləti çərçivəsində inteqrasiya barədə razılığa gəldilər. Bu modelin perspektivlərini necə görürsünüz? Bu, daha çox iqtisadi, yoxsa siyasi bir birlikdir?***

- İqtisadi sahədə inteqrasiya ilə bağlı tez-tez səslənən suallara baxmayaraq, bu məsələ yenə də müdafiə, xarici siyasət, sosial sahə və dövlətlərin həyatının digər aspektlərinə təsir göstərir. Ona görə də bu, əvvəldən siyasi bir layihədir. Əslində, bu, Birlik Dövlətinin yaradılması haqqında müqavilənin 1-ci maddəsində göstərilmişdir: Rusiya Federasiyası və Belarus Respublikası xalqların birləşməsi prosesində iki ölkənin demokratik sistemi və qanunun aliliyi çərçivəsində yeni bir mərhələ olan Birlik Dövləti yaradır. Gördüyünüz kimi, söhbət iqtisadi sahədə iki dövlətin ittifaqından yox, bir dövlətin yaranmasından gedir.

Fərqli sahələrdə inteqrasiya fərqli sürətlə irəliləmişdir. Əsas irəliləyiş iki ölkə vətəndaşlarının vətəndaş hüquqları sahəsində və hərbi sahədə müşahidə olunur. Qarşılıqlı iqtisadi əlaqə problemli olsa da, hələ də inkişaf edir. Həmkarlar ittifaqı proqramlarının son təsdiqlənməsi bu sahədə ciddi formal irəliləyişlərə işarə edir. Başqa bir sual, digər bəzi birlik tədbirləri və ikitərəfli müqavilələr kimi,- məsələn, Belarus Respublikası ilə Rusiya Federasiyası arasında vahid valyutanın tətbiqi və vahid valyutanın formalaşdırılması haqqında Saziş kimi,- onların tətbiq edilib-edilməyəcəyidir. İttifaq dövlətinin emissiya mərkəzi hələ 2000-ci ildə imzalanmış, lakin hələ bu məsələ həll edilməmişdir.



***- Bildiyimizə görə, Rusiya ilə Belarus arasında inteqrasiya proseslərinin daha da dərinləşdirilməsinə dair sənədlər paketi, digərləri arasında ümumi maliyyə və enerji bazarlarının qurulmasına yönəlmiş 28 ittifaq proqramı nəzərdə tutur. Sizcə, vahid enerji bazarının inşası Belarus ilə Azərbaycan arasında enerji sektorunda əməkdaşlığa təsir edəcəkmi?***

- Birincisi, proqramlar haqqında verilən məlumatlara görə (tam məzmunu hələ açıqlanmayıb), belə bir bazarın yaradılması çox tezliklə gözlənilmir, yalnız qazla bağlı müqavilənin imzalanacağı elan edildi ki, bu da 1 dekabr 2023-cü ilədək planlaşdırılır.

İkincisi, bu sahədə yenidən siyasi problemlər yarana bilər və alternativ enerji təchizatçıları tələb olunacaq. Belarus statistikasına görə, 2020-ci ildə Belarus Azərbaycandan 244 milyon dollarlıq neft və neft məhsulları idxal edib. Belarus standartlarına görə bu o qədər də çox deyil (müqayisə üçün: 2020-ci ildə Rusiyadan 3,4 milyard dollarlıq neft və neft məhsulları idxal edilib), həm də olduqca çoxdur. Azərbaycan nefti Rusiya neftinin tədarükündə qısamüddətli problemlər yaranarsa vəziyyəti düzəltməyə kömək edir. Buna görə də, qarşıdakı 2 ildə ittifaq proqramlarının təkbaşına Belarus və Azərbaycanın enerji sektorunda qarşılıqlı əlaqəsinə təsir etməsi ehtimalı azdır.





***- İttifaq tərkibində Belarusun xarici siyasətini kim müəyyənləşdirəcək?***

- Müqavilədə göstərilmiş İttifaq Dövləti yaratmağın məqsədlərindən biri, əlaqələndirilmiş xarici siyasət yürütməkdir. Eyni zamanda, xarici siyasət sahəsində koordinasiya və qarşılıqlı fəaliyyət İttifaqa üzv dövlətlərin birgə yurisdiksiyasına aiddir. 2000-ci ildən etibarən ”İttifaq Dövləti Yaratmaq Müqaviləsi”nə qoşulan dövlətlərin xarici siyasət sahəsində 2 illik əlaqələndirilmiş fəaliyyət proqramları qəbul edilmişdir. Beləliklə, Belarus və Rusiyanın xarici siyasəti uzun müddətdir əlaqələndirilir, baxmayaraq ki, bunun nə olduğunu dəqiq söyləmək çətindir, çünki bu proqramların mətni uzun müddətdir ictimaiyyətə açıqlanmır.

***- Belarus cəmiyyəti İttifaq Dövlətinə necə baxır?***

- Fərqli şəkildə. Aleksandr Lukaşenkonun qanunsuz olaraq hakimiyyəti ələ keçirdiyini düşünən vətəndaşlar Rusiya Prezidenti Vladimir Putinin ona dəstəyini haqsızlıq kimi qiymətləndirdi və bu da onları Rusiyadan və onunla inteqrasiya etmək düşüncəsindən uzaqlaşdırdı.

Bəzi vətəndaşlar Belarusun Rusiya ilə inteqrasiyasının heç bir inteqrasiya olmadığını, amma uzun müddətdə Belarusun mənimsənilməsi, müstəqilliyinin itirilməsi demək olduğunu düşünürlər, çünki dövlətlərin miqyası çox fərqli olduğu üçün burada real yox, formal bərabərlik olacağını düşünürlər.

Lukaşenkonun tərəfdarları isə onun Rusiya ilə İttifaq Dövləti qurmaq üçün etdiyi hərəkətləri bəyənirlər.

Kiçik və orta sahibkarlar əvvəlcə qanunvericilik səviyyəsində iş şəraitini düzəltməkdə bəzi üstünlüklər gördülər, lakin inteqrasiya proseslərindən öz biznesləri üçün əldə edəcəkləri dəstəyin və sürətli fayda əldə etməyin əvəzində bu qədər uzun bir müddətə gözləmək onların inancını bir qədər soyutdu.

*Tərcümə: Elçin Bayramlı*

## “Rusiyanın Ermənistana Belarusdan daha az ehtiyacı var”



“Əslində, Ermənistan Rusiya ilə Belarusdan əvvəl birlik vəziyyətində idilər. Amma Rusiya özünə yaxın kimi Belarusu tutdu. Belə görünür ki, Rusiyanın Ermənistandan çox Belarusa ehtiyacı var”. Bilmirəm, bunu Qafqaz İnstitutunun direktoru Aleksandr İskandaryanın ”NEWS.am”saytına verdiyi müsahibəsində onun təəssüfü kimi qəbul etmək olarmı?

”Belarus, Rusiya ilə birbaşa həmsərhəd olan və Qərbdə Baltikdən Qara dənizə qədər olan xətti kəsən Türkiyə ilə İran arasında deyil, Rusiya ilə Avropa Birliyi arasında yerləşən 10 milyonluq bir ölkədir. Rusiyanın Belarusu itirməsi həm ünsiyyət baxımından, həm də strateji baxımdan son dərəcə ciddi ola bilər. Ermənistan da Rusiya üçün dəyərlidir, amma Belarus ilə müqayisə də elə də yox...”- deyən İskandaryanın sözlərinə görə, burada Rusiyanın Belarus ilə birləşməsi baş vermir.

”Bəli, birləşməklə bağlı əvvəllər də fikir vardı. Xüsusilə bu fikir 90-cı illərdə daha güclü idi və müəyyən məqsədlərə çatmaq üçün həm Belarus, həm də Rusiya siyasətçiləri tərəfindən fəal şəkildə istifadə olunurdu. Bu gün Rusiya-Belarus birliyinin özü də olduqca situasiyadır, yəni burada həmişə qalmaqallar olub. Lukaşenko da həmişə bu situasiyadan qaynaqlar əldə etmək üçün yaxşıca istifadə etməyə çalışıb. Məsələ bundadır ki, bu gün bu resurslar getdikcə azalır ki, bu da Lukaşenkoya daha az seçim yeri qoyur”.

İskandaryana görə, bu gün Lukaşenkonu bu seçimi etməyə bəlkə də onun artıq seçim yerinin qalmaması vadar edir. Təbii ki, Belarus belə bir gedişlə çox güman ki, maliyyə xarakterli xeyli fayda əldə edə biləcək.

...Amma Ermənistana gəlincə, ” ...əslində, burada bir rus hərbi bazası var. Ermənistanda Rusiya hərbi varlığı Belarusda olmayan sərhədçilər tərəfindən təyin olunur. Eyni zamanda, Rusiyanın Ermənistandakı iqtisadi varlığı Belarusdan daha çoxdur”. Bu da erməni etirafıdır.

*Ağasəf Babayev*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

16 sentyabr



PSİXOLOQ AÇIQLADI

# Payız depressiyası nədir ?

"Depressiya (major depresif pozğunluq) - hissləri-nizi, düşüncə tərzinizi və hərəkətlərinizi mənfi təsir edən ruhi bir xəstəlikdir. Depressiya zamanı kədər hissi, yorğunluq, halsızlıq, marağın itməsi kimi hallar müşahidə olunur. Depressiyanın əlamətləri hər gün və 2 həftədən çox davam etməlidir. Ayrıca, tibbi vəziyyət (məsələn, tiroid problemləri, vitamin çatışmazlığı) depressiya simptomlarını təqlid edə bilər. Depressiya ümumiyyətlə 20-30 yaşlarda başlayır, lakin hər yaşda baş verə bilər". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Mahuxanım Teymurova deyib.

Onun sözlərinə görə, depressiya, müalicə edilə bilən bir xəstəlikdir: "Depressiya keçirən bir çox insan dərman, psixoterapiya və ya ikisinin birləşməsi ilə davam edən müalicə nəticəsində sağala bilər".

### Depressiyanın əlamətləri:

*Kədər, səbəbsiz ağlamaq, boşluq və ya ümidsizlik hissi

*Keçmiş uğursuzluqlar qarşısında dəyərsizlik, günahkarlıq hissləri

*Düşünmək, konsentrasiya olmaq, qərarlar qəbul etmək və bir şeyi xatırlamaqda problemlər

*Düşünməkdə, danışmaqda və hərəkət etməkdə ləngli̇k

*Ən kiçik məsələlərdə belə qəzəb, əsəbilik



*Hobbi, idman kimi normal fəaliyyətlərin əksəriyyətinə maraq və ya zövq itirilməsi

*İştahın azalması (kilo itkisi ) və ya nəzarətsiz çəki artımı

*Narahatlıq, təşviş

*Kürək və ya baş ağrısı kimi

*Ölüm və ya intihar haqqında tez -tez və ya təkrarlanan düşüncələr və ya intihar cəhdləri

*Yuxusuzluq və ya çox yuxu , yuxu pozğunluqları

*Yorğunluq və enerji çatışmazlığı

*Fərdlər çox vaxt səbəbini bilmədən özünü bədbəxt və ya ümidsiz hiss edə bilərlər.

### Qadınlarda yoxsa kişilərdə daha çox depressiya olur?

"Qadınlarda depressiya kişilərə görə daha çox olması müşahidə olunur. Kişilər əsasən işsizlik, güc və ya səlahiyyət itkisi, xəstəliklər, iflas kimi problemlərdən "depressiya" olurlar.

Yəni nailiyyətli olmaq, yetərlilik hissi, güclülük kimi kişiyə aid edilən mövzularda yaşanan bir problem, onun depressiya olmasına səbəb ola bilər".

### Bəs, payız depressiyası nədir?

"Günəşin daha az görünməsi ilə orqanizmdə melotonin hormonu artır, "xoşbəxtlik hormonu" sayılan serotonin isə azalır. Melotonin hormonu ilə yuxunun tənzimləndiyi məlumdur. Bu hormon yalnız qaranlıqda ifraz olunur, işıqda isə azalır. Yayda gecələr qısa olduğu üçün melotonin ifrazı azaldığı halda, uzun payız və qış gecələrində daha çox ifraz olunur".

"Depressiyaya tez-tez düşən insanlar, payız depressiyasına da asanlıqla yaxalanırlar. Qadınlar depressiyaya meylli olduqlarından, payız depressiyasına da ən çox qadınlarda rast gəlinir. Depressiya dərman, psixoterapiya və ya ikisinin birləşməsi ilə müalicə olunur".

*Ayşən Vəli*



# Xəbərdarlıq: Qandurulducu dərmanlar qanaxma və insult yaradır

***Yeni növ koronavirusa (COVID-19) yoluxan xəstələrin sağalması üçün müxtəlif üsul və müalicələrdən, o cümlədən protokolda qeyd olunan dərmanlardan istifadə olunur, halbuki həmin müalicələr ancaq xəstəxana şəraitində olan xəstələrə aiddir. Amma bəzən ev şəraitində müalicə alan xəstələri də protokolda qeyd olunan dərmanlarla yükləyərək sağaltmağa çalışırlar.***

SİA AZƏRTACA istinadən xəbər verir ki, həkim-terapevt Emin Məmmədov bununla əlaqədar olaraq deyib: "Kütləvi antibiotik istifadəsi deksametazon, lazımsız miqdarda köçürülən sistemlər ikincili bakterial infeksiyalara səbəb olur. Deksametazon və digər steroid preparatların istifadəsi immun sistemini məhv etmək gücünə malikdir. Həmin preparatlar ancaq reanimasiyada və stasionar şəraitdə yatan COVID xəstələrinə tətbiq oluna bilər. Onların ev şəraitində tətbiqi qəti qadağandır. COVID-lə xəstələnmək öldürməsə də, həmin dərmanlarla yüklənmək həmin xəstələri ciddi təhlükə ilə üz-üzə qoyur".

Həkim-terapevt onu da bildirib ki, ehtiyac olmadan, yersiz qəbul edilən antibiotiklərin kütləvi istifadəsi də yolverilməzdir, çünki həmin dərmanların qəbul edilməsi gələcəkdə başqa xəstəliyə tutularsa, antibiotiklər ona təsir göstərməyəcək. Protokolda qeyd olunan qandurulducu dərmanların qəbulu isə mütləq həkim nəzarətində olmalıdır, çünki həmin preparatlar qanaxmalara və insulta səbəb ola bilər: "COVID-ə yoluxma zamanı qandurulducu dərmanlar içmək yalnız bizim ölkədə müşahidə olunur. Heç bir Avropa, və digər inkişaf etmiş ölkələrdə ambulator şəraitdə müalicə alan xəstələrin qandurulducu preparatlar qəbul etməsinə icazə verilmir və qəti qadağandır. Avropa ölkələri ilə müqayisə etdikdə bizdə polifarmasiya yüksək və həddini aşan dozada dərman qəbulu ciddi bir səhiyyə problemidir".

COVID-19 bəlası ilə mübarizə müəyyən qaydalar çərçivəsində olmalıdır. Bu qorxulu bəladan tez qurtulmaq üçün müxtəlif dərmanlar qəbul edənlər gələcəkdə daha təhlükəli vəziyyətə düşə bilərlər.

# Bakıda avtomobil yolu keçən qadını vurub öldürdü

Bakıda yol-nəqliyyat hadisəsi olub. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, sentyabrın 14-ü saat 19:00 radələrində Xəzər rayonunun Buzovna qəsəbəsi ərazisində Bakı şəhər sakini C.Məmmədov idarə etdiyi "Mitsubishi" markalı avtomobillə yolu keçən paytaxt sakini Nuranə Nağıyevanı vurub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Xəzər Rayon Polis idarəsi tərəfindən araşdırma aparılır.



# Diqqət: Azərbaycanda bu avtomobillərin qiyməti bahalaşıb



***Azərbaycanda son aylarda hibrid avtomobillərinin qiymətində 15 faizə qədər artım müşahidə edilir. Bu barədə Trend-ə avtomobil nəqliyyatı üzrə ekspert Elnur Əliyev deyib. E.Əliyev bildirib ki, hibrid avtomobillərinin bahalaşması təkcə Azərbaycanla bağlı deyil, ümumilikdə dünyada bu avtomobillərə tələbat artıb. O qeyd edib ki, hazırda Azərbaycanda hibrid avtomobillər arasında ən çox maraq "Toyota Prius" markasınadır.***

Onun sözlərinə görə, bu avtomobillər Azərbaycana əsasən birbaşa ABŞ-dan və ya Gürcüstan vasitəsilə gətirilir: "Azərbaycana daha çox 2006-2008-ci illər arasında istehsal olunan avtomobillər gətirilir. Bu avtomobillər ABŞ-dan hərrac vasitəsilə alınır. Əvvəllər hərracdan avtomobilləri daha ucuz qiymətə və rahat şəkildə almaq olurdu, yəni hərrac iştirakçılarının sayı az olurdu. Lakin indi daha çox ölkələrdən avtomobil alıcıları hərraclarda iştirak edir və tələb artığı üçün qiymət də bahalaşır. İndi hərracda avtomobillər əvvəlkindən təqribən 1000 dollar baha satılır. Bu qiymət artımı əlbəttə ki, Azərbaycandakı qiymətlərə də təsirini göstərir.

Məsələn, iki-üç ay öncə Azərbaycanda 2008-ci il istehsalı olan yaxşı vəziyyətdə "Toyota Prius" avtomobilini 12500 manata almaq mümkün idisə, bu gün həmin avtomobil 13800-14000 manata satılır. Yəni son iki-üç ayda qiymətlər 15 faizə qədər bahalaşıb. Bu avtomobillərə maraq əsasən onların daha az yanacaq işlətməsi ilə əlaqədardır".

# Başsağlığı

Məmmədhəsən Məmmədov İbrahimov Məmmədəli İbrahim oğluna həyat yoldaşı

İBRAHİMOVA ƏZİZƏ İSLAM qızının vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**